Günəş Şərqdən doğur!

❒ № 142 (5423), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 12 avqust 2021-ci il (cümə axşamı)



## Koronavirusa yoluxanların sayı 2000-i keçdi

Analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib (səh.9)



## Azərbaycan İrana nota verdi

Tehran İrəvana dəstək göstərməklə regionda sabitliyə mane olmağa çalışır

**İran İslam Respublikasının Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə (XİN) dəvət olunub. Bu barədə XİN məlumat yayıb.**

Görüşdə səfirin diqqəti İran İslam Respublikasına məxsus yük avtomobillərinin Qarabağa qanunsuz səfər etməsi ilə bağlı aşkar edilmiş arzuolunmaz faktlara cəlb edilib və bununla bağlı qarşı tərəfə nota təqdim olunub.

(səh.3)

## Yanğınsöndürənlər əllərindən gələni edirlər



Səfir: "14 gün ərzində Azərbaycanın hər cür dəstəyini gördük"

(səh.2)

# Rusiyanın vasitəçiliyinə artıq son verilməlidir

## Rus sülhməramlılarını erməni terrorçuların müdafiəetmə əsası ilə ərazilərimizdən çıxarmalıyıq

"10 noyabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmayıb".



(səh.8)

# 600 bal toplayanların sayında da azalma var

Elçin Əfəndi: "Son 2 ildə imtahan nəticələrində müəyyən qədər aşağı göstəricilərin şahidi oluruq"



(səh.9)

✓ **Məcburi köçkünlər üçün evlər yalnız azad edilmiş ərazilərdə inşa olunacaq** (səh.2)

✓ **Azərbaycan Ermənistanın nəfəs borusunu bağlamalıdır**

Sülhməramlıların icazəsi ilə Qarabağa hərbi yüklərin və erməni hərbçilərin daşınmasına son qoyulmalıdır (səh.3)

✓ **"Ermənistanın indiki ərazilərinin 33 faizi Azərbaycan torpaqlarıdır"**

Elçin Alıoğlu: "Savaş başlasa, bu dəfə NATO ölkəsi olan Türkiyə ilə Rusiya üz-üzə gələcək" (səh.5)

✓ **Pediatr açıqladı**

Uşaqlarda "Delta"nın əlamətlərindən biri yüksək hərarət və səpkilərdir (səh.14)

# Məcburi köçkünlər üçün evlər yalnız azad edilmiş ərazilərdə inşa olunacaq



**Məcburi köçkünlər üçün yeni yaşayış sahələri yalnız işğaldan azad edilmiş ərazilərdə inşa olunacaq. Bu, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin açıqlamasında deyilir:**

Qeyd edilir ki, avqustun 11-də Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi aparatının rəhbəri Eldar Zeynalov Ağdam rayonundan məcburi köçkün, Bakı şəhərinin Suraxanı rayonunda müvəqqəti qediyyatda olan Əliyeva Mahirə Firidun qızını onlayn qayada qəbul edib. Vətəndaş M.F.Əliyevanın müraciəti Bakı şəhərinin Xətai rayonundakı göz xəstəxanasının inzibati binasında - yarımçıq tikilidə müvəqqəti məskunlaşmış oğlu Quliyev İlkin Mətləb oğlunun çoxuşaqlı ailəsinin mənzillə təmin edilməsi barədə olub. Quliyev İlkin Mətləb oğlunun ailə vəziyyəti nəzərər alınaraq, onların Ağdam rayonunun Quzanlı qəsəbəsində inşa edilmiş yeni binada üçotaqlı mənzilə köçürülməsi təklif olunub. Lakin ailə Dövlət Komitəsinin təklifini qəbul etməyib:

"Onlayn qəbuldan sonra, saat 13-14 radələrində gənc bir qadın beş azyaşlı uşaqla Dövlət Komitəsinin inzibati binasındakı "Qəbul otağı"na gələrək, özü haqqında heç bir məlumat vermədən "bu uşaqlara baxa bilmirəm, götürün, uşaq evinə verin" deyərək, komitə əməkdaşlarının çağırışlarına məhəl qoymadan binanı tərk edib. Uşaqlarla söhbət zamanı ailənin faktiki yaşayış ünvanı müəyyənləşdirilib və bu zaman aydın olub ki, onlar vətəndaş M.F.Əliyevanın oğlu İlkin Quliyevin övladlarıdır. Valideynləri müəyyənləşdirildikdən sonra uşaqlar öz ailəsinə təhvil verilib.

Qeyd edilməlidir ki, uşaqları komitənin binasında qoyub gedən ana - Quliyeva Səbinə Arif qızı özü Ağdam rayonunun işğal altına düşməyən Paşabəyli kəndində daimi qeydiyyatdadır və məcburi köçkün deyildir.

Dövlət Komitəsi bir daha bəyan edir ki, məcburi köçkünlər üçün yeni yaşayış sahələri yalnız işğaldan azad edilmiş ərazilərdə inşa olunacaqdır. Bakı şəhərinin Xətai rayonundakı göz xəstəxanasının inzibati binasında - yarımçıq tikilidə müvəqqəti məskunlaşmış 191 məcburi köçkün ailəsi də, qanunvericilikdə nəzərdə tutulan qaydada, həmin ərazilərdə yeni yaşayış sahəsi ilə təmin ediləcəkdir".



## Ermənistan rəhbərliyi beynəlxalq normaları heçə sayır

### Ombudsman: "Növbəti hesabatımızda Ermənistanla bağlı daha geniş faktlar yer alacaq"

**"Uzun illər boyu Ermənistanda azərbaycanlılara qarşı yürüdülən nifrət siyasəti bütövlükdə həmin cəmiyyətin üzvlərinin, habelə uşaqların psixologiyasına öz mənfi təsirini göstərir. Belə ki, xüsusilə erməni uşaqlarda Azərbaycanfobiya hissi formalaşdıraraq, onları hərbi əməliyyatlara cəlb edən Ermənistan hərbi-siyasi rəhbərliyinin bu kimi addımları qətiyyən yolverilməzdir".**

Bunu Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib.

S.Əliyeva bildirib ki, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası, "Müharibə zamanı mülki şəxslərin qorunması haqqında" Cenevrə Konvensiyası 15 yaşınadək uşaqların müharibəyə cəlb edilməsini qadağan edir və bunu müharibə cinayəti kimi qiymətləndirir:

"Təəssüf ki, beynəlxalq konvensiyalar üzrə götürdüyü öhdəliklərə əməl etməyən Ermənistanın siyasi və hərbi rəhbərliyi qeyd olunan normaları da heçə sayır. Bu kimi faktlarla bağlı daha geniş məlumatlar növbəti hesabatımızda yer alacaq. Bu vəziyyət İnsan Hüquqları üzrə Müvəkkil olaraq məni ciddi narahat edir. Hesab edirəm ki, Ermənistan hökuməti götürmüş olduğu beynəlxalq öhdəliklərə riayət etməli və azərbaycanlılara qarşı nifrət siyasətindən əl çəkməlidir".

## NATO tarixində ilk dəfə hərbi alyansın baş katibi qadın ola bilər





**NATO tarixində ilk dəfə hərbi alyansın baş katibi qadın seçilə bilər.**

**APA-nın xəbərinə görə, bu barədə "El Pais" nəşri diplomatik mənbəyə istinadən məlumat yayıb.**

Məlumatda bildirilir ki, yeni baş katib NATO-nun 2022-ci ilin yazında Madriddə keçiriləcək sammitində seçiləcək və o, həmin ilin oktyabr ayında hazırkı baş katib Yens Stoltenberqi əvəz edəcək.

Nəşr yazır ki, təşkilat daxilində Y. Stoltenberqin yerinə qadının seçilməsi barədə fikir birliyi var.

"Bir qadının NATO-ya rəhbərlik etmə vaxtının gəldiyinə dair ümumi fikir mövcuddur", -deyə "El Pais" diplomatik mənbəyə istinadən qeyd edir.

NATO-nun gələcək Baş katibinin müəyyənləşməsi ilə bağlı danışıqlar bu ilin payızında başlayacaq, lakin namizədlərin adı artıq ittifaqın müxtəlif üzv ölkələri tərəfindən çəkilir.

"El Pais" yazır ki, mümkün namizədlər arasında Böyük Britaniyanın keçmiş baş naziri Tereza Mey, Aİnin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə keçmiş Xüsusi Nümayəndəsi Federika Moqerini, Almaniyanın müdafiə naziri Anneqret Kramp-Karrenbauer, Litvanın keçmiş prezidenti Dalya Qribauskayte, Estoniya prezidenti Kersti Kalyulayd, Xorvatiyanın keçmiş prezidenti Kolinda Qrabar-Kitaroviçin adı səsləndirilir.

Qeyd edək ki, Yens Stoltenberq 2014-cü il oktyabrın 1-dən hərbi alyansın baş katibidir. Bu il NATO Şurası Stoltenberqin fəaliyyət müddətini sonuncu dəfə bir il müddətinə uzadıb. NATO Baş katibinin seçilməsində hərbi blokun aparıcı ölkələrinin razılığı vacibdir və bu məsələdə son söz ABŞ-a məxsusdur.

Təyinat isə Şimali Atlantika Şurası tərəfindən formal olaraq təsdiqlənir.

## Dövlət Neft Şirkətinə iki vitse-prezident təyin edildi

**Prezident İlham Əliyev K.T.Nəcəfovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Kənan Təhməz oğlu Nəcəfov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilib.

Prezident İlham Əliyevin imzaladığı digər sərəncamla Zaur Aydın oğlu Qurbanov da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilib.

## Azərbaycan XİN Əlcəzairə başsağlığı verib



**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Əlcəzairə başsağlığı verib. Bu barədə XİN "Twitter"də paylaşım edib.**

"Əlcəzairdəki meşə yanğınları və onun dağıdıcı nəticələri barədə xəbərlər bizi dərindən kədərləndirdi. Meşə yanğınlarının qurbanlarının ailələrinə başsağlığı verir və yaralıların hamısının tezliklə sağalmasını diləyirik. Bu çətin zamanda fikrimiz və dualarımız dost Əlcəzair xalqı ilədir", - deyə XİN bildirib.

*Qeyd edək ki, Əlcəzairin paytaxtından şərqdə Kabile regionundakı dağlıq ərazidə baş verən yanğın nəticəsində ən azı 42 nəfər ölüb. Onlardan 25-i sakinləri yanğından xilas etmək üçün çalışan əsgərlərdir.*

## Yanğınsöndürənlər əllərindən gələni edirlər

### Səfir: "14 gün ərzində Azərbaycanın hər cür dəstəyini gördük"



**14 gün ərzində Azərbaycanın hər cür dəstəyini gördük. İlk növbədə Prezident İlham Əliyevə dəstəyinə görə təşəkkürümüzü bildiririk.**

Trend-in məlumatına görə, bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı deyib.

Səfir bildirib ki, Türkiyədə yanğın başlayanda ilk dəqiqələrdən Azərbaycan öz dəstəyini göstərdi, yardımlarını göndərdi. Azərbaycanlı yanğınsöndürənlər əllərindən gələnləri edirlər:

"Bu gün Türkiyə bayrağı da dəstək məqsədilə Heydər Əliyev Mərkəzində dalğalandırılmaqdadır. Bu da öz növbəsində Azərbaycanın növbəti dəstəyidir. Bu dəstəyə görə bütün qardaşlarımıza təşəkkür edirəm".

## ABŞ və Rusiya müdafiə nazirləri telefonla danışıb

### Qlobal və regional təhlükəsizlik məsələləri barədə müzakirələr aparılıb




**Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqu amerikalı həmkarı Lloyd Ostinlə telefonla danışıb.**

"Report" TASS-a istinadən xəbər verir ki, ABŞ və Rusiya müdafiə nazirləri strateji sabitlik, eləcə də qlobal və regional təhlükəsizlik məsələləri barədə müzakirələr aparıblar.

Məlumata görə, telefon danışığının məqsədi strateji sabitliklə bağlı dialoqun bərpası və risklərin azaldılması səylərini dəstəkləməkdir.

# Azərbaycan İrana nota verdi

## Tehran İrəvana dəstək göstərməklə regionda sabitliyə mane olmağa çalışır



**İran İslam Respublikasının Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə (XİN) dəvət olunub. Bu barədə XİN məlumat yayıb.**

Görüşdə səfirin diqqəti İran İslam Respublikasına məxsus yük avtomobillərinin Qarabağa qanunsuz səfər etməsi ilə bağlı aşkar edilmiş arzuolunmaz faktlara cəlb edilib və bununla bağlı qarşı tərəfə nota təqdim olunub. Notada son dövrlər dost İran İslam Respublikasına məxsus müxtəlif təyinatlı avtomobillərinin davamlı olaraq rəsmi Bakının icazəsi olmadan Azərbaycanın Qarabağ bölgəsinə giriş-çıxış etməsi ilə bağlı narazılıq ifadə olunub: "Bir müddət öncə İran tərəfinə şifahi şəkildə çatdırılmış narazılığımız görüş zamanı bir daha İran səfirinin qarşısında qaldırılıb". Görüş zamanı bu kimi narahatlıq doğuran və iki ölkə arasında mövcud yaxın dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun gəlməyən hallara son qoyulması istiqamətində İranın yeni administrasiyası tərəfindən əməli addımların atılacağı qeyd olunub.

**Millət vəkili Asim Mollazadə "Şərq"ə açıqlamasında deyib ki, nota yerində verilən qərardır:** "Əslində İranın indiki ritorikası təəccüblü deyil. Tehran müharibə dövründə də İrəvana dəstək göndərirdi. Bu, ciddi narazılıq, suallar doğururdu. Üçtərəfli razılıqdan sonra da İran revanşist Ermənistanı dəstəkləməyə davam etdi. Bu barədə hətta cənub qonşumuzun parlamentində də müzakirə gedib. Əlbəttə, İranın Ermənistanı dəstəkləməsi regionda sabitliyə mane olmaq üçündür. Fikrimcə, rəsmi Tehranın addımları islam təşkilatlarında ciddi müzakirə olunmalıdır. Bu siyasətinə son qoymasa, onsuz da islam dünyasında biabır olan Tehran mühüm qonşusu olan Bakı ilə münasibətlərə xələl gətirəcək".

**Kənan**

## SOCAR-ın İdarə Heyətinin tərkibinə dəyişiklik edilib




**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Fərmana əsasən Şirkətin İdarə Heyəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 14 (on dörd) üzvdən - Şirkətin prezidentindən, Şirkətin birinci vitse-prezidentindən və 12 vitse-prezidentdən ibarət olacaq.

*Qeyd edək ki, bu dəyişikliyə qədər şirkətin İdarə Heyəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 14 (on dörd) üzvdən - Şirkətin prezidentindən, Şirkətin birinci vitse-prezidentindən, geologiya və geofizika məsələləri üzrə, yataqların işlənməsi üzrə, iqtisadi məsələlər üzrə, emal üzrə, sərmayələr və marketinq üzrə, sosial məsələlər üzrə, ekologiya üzrə, kadr, rejim və informasiya texnologiyaları üzrə, strateji inkişaf üzrə, neftin, qazın nəqli və qaz təsərrüfatı məsələləri üzrə vitse-prezidentlərindən və vitse-prezidentdən ibarət idi.*

# Azərbaycan hər il hərbi xərclərini artıracaq

## Bu prioritetin inkişafını qidalandıran bir neçə səbəb var



Cari il ərzində Azərbaycanın müdafiə və milli təhlükəsizlik üzrə xərcləri yüksək olub. Rəsmi məlumata əsasən, hərbi xərclər yanvar-iyun ayları ərzində ötən ilə nisbətdə 1 milyard 76 milyon 300 min manat artaraq, 2 milyard 533 milyon 400 min manat icra edilib.

Bu barədə dövlət büdcəsinin, o cümlədən büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri üzrə proqramların icrasına dair hesabatda bildirilib.

**Siyasi yazar, jurnalist Aqşin Kərimov "Şərq"ə il ərzində hərbi xərclərin çoxalmasının səbəblərini açıqlayıb. Ekspert hərbi xərclərin artmasının bir neçə məsələdən qaynaqlandığını vurğulayıb:** "Azərbaycanın Qarabağı Ermənistanın işğalından azad etməsindən sonra yaranan yeni geosiyasi reallıq Bakı üçün yeni hərbi prioritetləri müəyyənləşdirib. Ermənistanla sərhədlərin delimitasiyası, yeni hərbi avadanlıqların tədarükü hərbi xərclərin artmasına gətirib çıxaran amillərdəndir. Digər tərəfdən, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən hərbi qulluqçuların xidmət və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər davam etdirilir. Azərbaycanın Ermənistan üzərində zəfər çalması bu istiqamətdə görüləcək tədbirlərin miqyasının genişləndirilməsini şərtləndirir. Buna görə də işğaldan azad edilmiş ərazilərdə yeni hərbi hissələrin açılması zəruridir və bu istiqamətdə işlər davam etdirilir. Postmüharibə dövründə Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd, Xocalı, Ağdam, Laçın və Kəlbəcərdə hərbi hissələr açılıb ki, bu da əlavə xərclər deməkdir. Bu ilin dövlət büdcəsinin altı ayı üzrə hərbi xərclərin proqnoza qarşı artıq icra edilməsinin bir səbəbi də budur".

*A.Kərimovun fikrincə, bundan sonra da Azərbaycan hərbi xərclərini çoxaldacaq:* "Azərbaycan bundan sonra da müdafiə və milli təhlükəsizlik üzrə xərclərini artıracaq. Bu prioritetin inkişafını qidalandıran bir neçə səbəb var. Birincisi, Ermənistan hələ də qeyri-konstruktiv mövqe nümayiş etdirir və bu mövqeyi arasıra revanşist bəyanatlara çevrilir. İkincisi, sərhəd qaçaqmalçılığına qarşı mübarizə tədbirləri gücləndirilir, bu isə sərhəd xidmətinin işinin təkmilləşdirilməsini zərurətə çevirir. Üçüncüsü, ərazilərin minalardan təmizlənməsi prosesi davam etdirilir".

**Aynurə Pənahqızı**

Dövlət sərhədində atəşkəsin tez-tez pozulması ilə bərabər Ermənistan silahlı birləşmələrinin Qarabağdakı Rusiya sülhməramlılarının məsuliyyət zonasına yerləşdirilməsi həyata keçirilir. İnternetdə yayılan videogörüntülərdən aydın olur ki, Laçın dəhlizi vasitəsi ilə "Kamaz", "Ural" və başqa yük maşınları ilə yüzlərlə hərbçi işğaldakı ərazilərə transfer edilir. Habelə onların silah-sursat və ərzaq təminatı da fasiləsiz olaraq bu dəhliz vasitəsi ilə həyata keçirilir.



# Azərbaycan Ermənistanın nəfəs borusunu bağlamalıdır

## Sülhməramlıların icazəsi ilə Qarabağa hərbi yüklərin və erməni hərbçilərin daşınmasına son qoyulmalıdır

Hazırda Qarabağda yaşayan ermənilərin su problemi yaranıb. Politoloqların əksəriyyəti isə düşünür ki, başqa çeşidli problemləri də yaratmalıyıq. Elə etməliyik ki, Qarabağdakı ermənilərin gənc nəsli Ermənistana və Rusiyaya köç etsin, işçi qüvvəsi çatışmasın, İrandan Qarabağa bizə bəlli olmayan yüklər daşınmasın.

**Mövcud durumu "Şərq"ə şərh edən millət vəkili Elman Məmmədov söyləyib ki, torpaqlarımızda məskunlaşanların hər biri qanunlarımızı qəbul edərək yaşamalıdırlar:** "Bu gün elə bir vəziyyət yaranıb ki, Azərbaycan dövlətinin ərazisindəki bir qrup erməni hələ qanunlarımızı qəbul etməyiblər, belə getsə, qəbul etmək fikrində də olmayacaqlar. İki yolları var: Ya Azərbaycan qanunlarına əməl edib, ərazimizdə dinc vətəndaş kimi yaşamalıdırlar. Ya da ərazilərimizi tərk etməlidirlər.

Qarabağda yaşayan ermənilərin ərzaq məsələsi, su və enerji təminatı var. Bu məsələlər getdikcə özünü qabarıq şəkildə büruzə verir. Xankəndi və onun ətrafı ordumuzun nəzarətindədir. Normal insan kimi yaşamaq istəyirlərsə, şəxsiyyət vəsiqələrimiz onların cibində olmalı, Azərbaycan vətəndaşı kimi yaşamağı qəbul etməlidirlər. Hələlik Azərbaycanın razılığı ilə rus sülhməramlıları müvafiq ərazilərə nəzarət edirlər. Laçın dəhlizi vasitəsilə hələ ki, qeyri-qanuni işləri həyata keçirirlər. Bu yaxınlarda məlumat yayıldı ki, Laçın dəhlizindən mülki şəxs adı altında sülhməramlıların icazəsi ilə yenə Qarabağa hərbi yüklər və Ermənistan hərbçiləri daşınır. Belə olduqda Azərbaycan onların nəfəs borusunu bağlamalıdır. Yəni Laçın dəhlizinə də özümüz nəzarət etməliyik".

Deputatın fikrincə, Qarabağdakı ermənilərin gündəlik təminatına imkan verməməliyik:

"Bizə tabe deyillərsə, qanunlarımızı qəbul etmirlərsə, ərazilərimizdə yaşaya bilməzlər, heç bir güzəşt edilə bilməz. Necə ola bilər ki, vətəndaşlığımızı qəbul edib qanunlarımıza tabe olmurlar, ancaq ərazimizdə yaşayıb təminat üçün bizdən kömək istəyirlər. Bu, heç bir məntiqə sığan deyil".

**Yeganə Bayramova**

# KTMT variantı işə düşüb

## Kreml planlarını həyata keçirməyə tələsir



### "Rusiya bilir ki, dörd ildən sonra sülhməramlılar Qarabağdan çıxmalıdırlar"

MDB ölkələrinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi, Ermənistanda işçi səfərdə olan Stanislav Zas dünən Ermənistanın Vedi rayonundakı Arazdəyən (Erasx) kəndindəki hərbi mövqelərdə olub. Onu Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini, general-leytenant Andranik Makaryan müşayiət edib.

Arazdəyəndə, Naxçıvanın Sədərək rayonunun Heydərabad kəndi ilə üzbəüz məkandakı mövqedə olarkən o, sərhəddəki situasiya ilə tanış olub. S.Zas sərhəddəki dayaq mövqesində erməni hərbçilərlə söhbət edib. O, Ermənistanın Müdafiə Nazirliyini problemi sülh yolları ilə həll etmək istiqamətində daha aktiv çalışmağa çağırıb. Məhz Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan ordusunun mövqeləri müxtəlif çaplı silahlardan atəşə tutulur.

*S.Zas İrəvanda olarkən bəyan edib ki, Ermənistan-Azərbaycan sərhədindəki insidentlər KTMT üzvü olan Ermənistanın təhlükəsizliyi üçün təhdiddir.*

"Mütəşəkkil şəkildə, o cümlədən Ermənistanın müvafiq dövlət strukturlarının köməyi ilə monitorinqlər keçiririk. Təbii, hesab edirik ki, sərhəddəki insidentlər KTMT üzvü olan Ermənistanla yanaşı, KTMT-nin Cənub məsuliyyət zonası üçün təhdiddir. Problemin həll yollarına gəldikdə isə, düşünürük ki, situasiyanın siyasi yollarla həll imkanları tükənməyib. Gerçəkdən də, bu, hamı üçün ən yaxşı variant olardı. Baş verənlər Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında əldə olunmuş anlaşmanın gerçəkləşdirilməsini, regionda sülhün bərqərar olmasını çətinləşdirir", - S.Zas deyib.

Sonra İrəvanda Nikol Paşinyanla görüşən S.Zas sərhəddəki olaylardan KTMT-nin narahat olduğunu vurğulayıb. Paşinyanla görüşündə də S.Zas problemlərin sülh yolu ilə həllinin önəmli olduğunu vurğulayıb. KTMT-də növbəti sədr rotasiya qaydası ilə Ermənistan olacaq.

Beləliklə, İrəvanda Ermənistan rəhbərliyinə faktiki olaraq xəbərdarlıq edən və sərhəddəki insidentlərin ötən ilin noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müddəalarının gerçəkləşdirilməsinə mane olduğunu vurğulayan S.Zas həm də Ermənistan rəhbərliyinin KTMT-ni prosesə qatmaq niyyətlərinə qarşı çıxdığını aşkar deyib.

**Siyasi şərhçi Asif Nərimanlı S.Zasın bəyanatını "Şərq"ə şərh edib:**

"KTMT baş katibinin İrəvana səfəri Paşinyanın çağırışı ilə bağlı idi. Beləliklə, qurum Ermənistana dəstəyini göstərdi. İzah etdi ki, KTMT onun yanındadır və başqa "oyunçuya" ehtiyac yoxdur. Bu, həm də daxili auditoriyaya mesaj idi. Belə ki, Paşinyan məhz KTMT "kartından" yararlanaraq ictimai rəy yaradır. Bu mənada Zasın səfəri və dedikləri heç də təəccüblü deyil".

**A.Nərimanlının fikrincə, əsas proseslər "kulisdə" gedir:** "Zas İrəvanda olarkən Rusiya Xarici işlər naziri Sergey Lavrovun azərbaycanlı həmkarı Ceyhun Bayramova zəng etməsi, ardınca isə Azərbaycan Müdafiə Nazirliyinin sərt açıqlaması onu deməyə əsas verir ki, "pərdəarxası oyun" gedir. Rusiya üçtərəfli razılaşmadan boyun qaçırmağa və gündəmi dəyişməyə çalışır. Bu, çox güman, sərhədlərin müəyyənləşməsi ilə bağlıdır. İkinci bir tərəfdən isə KTMT-nin Monitorinq Mərkəzinin bölgəyə gəlişi müzakirə mövzusudur. Moskva bunun üçün tələsir. Bilir ki, dörd ildən sonra sülhməramlılar Qarabağdan çıxmalıdırlar".

**Kənan Novruzov**




## Qardaşlığın, birlik və bərabərliyini nümayişi...

### Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyənin bayrağı videoproyeksiya olunub

**Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyənin bayrağı videoproyeksiya olunub.**

Meşə yanğınlarına qarşı mübarizədə Azərbaycanın dəstəyini nümayiş etdirmək məqsədilə avqustun 11-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə Respublikasının bayrağı videoproyeksiya olunub.

Türkiyə-Azərbaycan qardaşlığını, birlik və bərabərliyini nümayiş etdirmək məqsədilə təşkil olunan tədbirdə Azərbaycanda fəaliyyət göstərən türk QHT-ləri də iştirak ediblər. Həmçinin səfirlik və bağlı quruluşların təmsilçiləri ailə üzvlərilə birlikdə bu dəstək və həmrəylik tədbirində iştirak etmək üçün Heydər Əliyev Mərkəzinin qarşısına gəliblər.

*Xatırladaq ki, iyulun 28-dən Türkiyədə başlayan meşə yanğınları 46 vilayətə ziyan vurub. Bu faciəvi hadisə nəticəsində 8 nəfər vəfat edib, çoxlu sayda heyvan ölüb, minlərlə insan evindən didərgin düşüb, minlərlə ağac, çiçək, kol və başqa bitki örtüyü məhv olub. Türkiyəni bürüyən yanğınların söndürülməsi üçün Azərbaycan, Ukrayna, Rusiya, İran, ABŞ, Avropa İttifaqı və başqa dövlətlər yardım ediblər.*

# Yeni yoluxma halları 10 dəfə artıb

## "Əgər tədbir görməsək, sentyabrdan başlayaraq yenidən gündəlik yüksək rəqəmlərin şahidi ola bilərik"




**Bu sözləri ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib. H.Harmancı son zamanlar dünyada artan yoluxma halları haqqında danışıb:**

"Epidemioloji vəziyyətlə əlaqədar bir az rahatlanmalar başladığı və məhdudiyyətlərin yumşaldılması zaman COVID-19-a yoluxma hallarının artacağını təxmin edirdik. Bu, bütün dünyada belə oldu. ÜST bunun data bazasını toplayır. Məlumdur ki, nə qədər çox sərt tədbir alınırsa, yoluxma sayı bir o qədər azalır. Nə qədər çox yumşalmalar olarsa, yoluxma sayları bir o qədər artır. Bu, pandemiyanın bitmədiyi anlamına gəlir. Lakin hər zaman eyni təzyiqi göstərərək insanlarla davranmaq olmaz. Bu işin iqtisadi, sosial, psixoloji və s. tərəfləri də var. Hökumətlər, o cümlədən Azərbaycan hökuməti ölkədəki epidemioloji vəziyyəti nəzərə alaraq bəzi məhdudiyyətləri yumşaltmaq qərarına gəldi. Bu, bir az özümüzə gəlməmiz üçün önəmli bir fürsətdir. Lakin təxminən son bir ayda yoluxma saylarında sürətli şəkildə artım müşahidə olunur. Belə ki, bu müddətdə COVID-19-a gündəlik yeni yoluxma halları 10 dəfə artıb. Yoluxma halları hətta ikirəqəmli ədədlərlə ifadə olunurdu, hazırda isə 1000-dən çoxdur. Azərbaycanda hər gün təxminən 10 min civarında diaqnostik test icra olunur. Aparılan testlər arasında pozitiv nəticələrin payı 2 faizdən 13 faizə qədər artıb. Bu, o deməkdir ki, əhali arasında koronavirusla xəstələnənlərin sayı artır".

H.Harmancı vurğulayıb ki, pandemiya dövründə Azərbaycanın nailiyyətlərindən biri də burada çox yaxşı laboratoriyaların qurulmasıdır: "Laboratoriyalarda aparılan testlərdə ölkədə koronavirusun "delta" variantının olması təsdiqini tapıb. Yoluxma sayları da artır. Hər iki vəziyyət bizə deyir ki, bu iş bitmədi. Əgər tədbir görməsək, sentyabrdan başlayaraq yenidən gündəlik yüksək rəqəmlərin şahidi ola bilərik. Onu da qeyd edim ki, havanın temperaturunun koronavirusun yayılmasına heç bir təsiri yoxdur. Lakin payız mövsümündə hava soyuduqca vətəndaşlar qapalı məkanlara üz tutacaq, qapı-pəncərələr bağlanacaq və hava dövriyyəsi azalacaq. Bütün bunların yoluxma hallarının artımına səbəb olduğu məlumdur".

> "Havanın temperaturunun koronavirusun yayılmasına heç bir təsiri yoxdur"

Hande Harmancı deyib ki, koronavirus pandemiyası ortaya çıxdığında Azərbaycan çox sürətli bir şəkildə tədbir görməyə başladı: " Öncəliklə sərhədlərdə tədbir həyata keçirildi, sonra xəstəxanalardakı infrastrukturun gücləndirilməsinə başlanıldı. Bununla yanaşı, çoxsaylı ləvazimatlar, mexaniki ventilyatorlar, oksigen konsentratorları alındı. Əhalinin maarifləndirilməsi, səhiyyə işçilərinin bilik və bacarıqlarının artırılması istiqamətində işlər görüldü. Bu zaman Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) olaraq əlimizdən gəldiyi qədər hökumətə dəstək verməyə çalışdıq. Azərbaycanda pandemiya ilə mübarizədə atılan ən önəmli və uğurlu addımlardan biri də Operativ Qərargahın qurulmasıdır. Operativ Qərargahda müxtəlif nazirlik, agentlik, qurum təmsil olunur. Onların bir Qərargahda birləşməsi, bir-birindən xəbərdar olması, birgə işləməsi çox vacib idi. Düşünürəm ki, ən önəmli və erkən nailiyyətlərdən biri də elə bu oldu. Bundan başqa, çox qısa müddətdə elektron rəqəmsal infrastruktur yaradıldı. Pandemiya çox pisdir, lakin bir yandan da onunla mübarizə aparan ölkələr bir çox əskiklərini gördülər. Ölkələrin həm infrastruktur, həm də innovasion sahədə gücləndirməli olduğu yerlər müəyyənləşdi. Düşünürəm ki, qarşıdakı illərdə burdan öyrəndiklərimizlə çox böyük addımlar ata bilərik".

**Aynurə Pənahqızı**

# “Ermənistanın indiki ərazilərinin 33 faizi Azərbaycan torpaqlarıdır"



## Elçin Alıoğlu: “Savaş başlasa, bu dəfə NATO ölkəsi olan Türkiyə ilə Rusiya üz-üzə gələcək”

Rus hərbçilərinin Qazaxın Əskipara kəndinə yerləşməsi məsələsi son günlər ciddi müzakirə mövzusudur. Bəziləri bunu müsbət addım kimi qəbul edirlər. Bəziləri isə əksinə. Bir qrup ekspertin fikrincə, Qazaxda baş verənlər böyük oyunun kiçik epizodudur. Bu barədə "Şərq"in suallarını cavablandıran jurnalist, siyasi şərhçi Elçin Alıoğlu da belə düşünür:

**- Rusların Qazaxa yerləşməsi ilə bağlı məlumatlar dövriyyəyə gətirilir. Bu barədə nə düşünürsünüz?**

- Bu, Zəngəzur dəhlizinin açılmasını sürətləndirmək və Azərbaycanın Ermənistan ərazisindəki eksklavlarını azad etməyə hazırlıqdır. Eyni zamanda Naxçıvanın Kərki kəndinin taleyinə də aydınlıq gələcək.

**- Naxçıvan istiqamətində atəşkəsin intensiv pozulması nəyə hesablanıb?**

- Bu, əlbəttə, ABŞ-la Fransanın sifarişidir. Fransa prosesləri Rusiyanın ”moderatorluğundan” çıxararaq ATƏT-in Minsk qrupunu dirçəltmək istəyir. Bəziləri Fransa ilə Rusiyanın maraqlarının üst-üstə düşdüyünü deyirlər. Lakin bu, absurddur. Hər beynəlxalq gücün öz istəyi var.

**- Onlar nə istəyirlər?**

- Avropa Birliyinin niyyəti Çin-Hindistan-İran transmilli marşrutunu Ermənistandan Gürcüstana çıxarmaqdır. Fransa Rusiyanı proseslərdən kənarlaşdırmaq, Türkiyəni uzaqlaşdırmaq arzusundadır. Rəsmi Paris Ermənistana təzyiq göstərə biləcək yeganə tərəf olmağa çalışır. ABŞ isə öz növbəsində Rusiya və Fransanı ”oyundankənar vəziyyətə” salmağa cəhd edir. Vaşinqton və Moskva Azərbaycan-Ermənistan təmaslarında ayrı-ayrılıqda yeganə hegemon dövlət olmaq istəyirlər.

**- Bəs İran?**

- İrəvan-Tehran münasibətləri sadəcə sözdədir. Onlar hansısa transmilli layihə həyata keçirə bilməzlər. ABŞ, Avropa Birliyi və Rusiya buna imkan verməz. Təəssüf ki, həmin güclərin biri Türkiyənin proseslərin əsas iştirakçısı olduğunu unudurlar.

**- Zəngəzur dəhlizinin taleyi barədə nə düşünürsünüz?**

- Dəhlizin açılacağına heç bir şübhəm yoxdur. ABŞ bir tərəfdən buna laqeyd olsa da, digər tərəfdən dəhlizin açılmasında maraqlıdır. Həmçinin bu, Rusiyanın da maraqlarına cavab verir.

**- Silahların susması nəyə işarədir?**

- Bəziləri ”havadan barıt qoxusunun gəldiyini” iddia edirlər. Əslə belə deyil. Müharibənin başlanması mümkünsüzdür. Birincisi, İrəvanın bunun üçün lazımi gücü yoxdur. İkincisi, Şuşa Bəyannaməsinə əsasən Azərbaycana qarşı hansısa təhdid Türkiyəyə təhdid kimi qiymətləndirilir. Qardaş dövlət isə Şimali Atlantik Alyansında ordusunun hazırlığına görə üçüncüdür. Savaş başlasa, bu dəfə NATO ölkəsi olan Türkiyə ilə Rusiya üz-üzə gələcək. Bunu isə heç biri istəmir.

**- Elə isə yekun sülh müqaviləsi nə vaxt imzalanacaq?**

- Sərhədlər müəyyənləşməyənədək yekun sülh müqaviləsi imzalanmayacaq. Müxtəlif sənədlərə görə Ermənistanın indiki ərazisinin 33 faizi Azərbaycan torpaqlarıdır. İrəvan sovet hökumətinin torpaqları onlara verdiyini arqument kimi göstərir. Lakin həmin sənədlərdə yazılıb ki, ermənilərin burada qalmasına qərar verilir. Deməli, biz istənilən vaxt Ermənistan ərazisinə daxil ola bilərik. Beynəlxalq hüquqa görə, Zəngəzur, Dərələyəz, Vedibasar Azərbaycan torpaqlarıdır. Biz sülhməramlı mövqeyimizi göstəririk. Ermənistan hakimiyyəti inadkarlıqdan əl çəkmir. Bu ideologiya eyni ilə xərçəng xəstəliyi kimi onları hər gün daha tez ölümə yaxınlaşdırır.

**Kənan Novruzov**

# “Qarabağ ermənilərinə sahib çıxan yoxdur"

## “Bu isə o deməkdir ki, onlar Azərbaycan vətəndaşlığını qəbul etməli olacaqlar, proseslər ona doğru gedir”



**Dünən saat 01:05-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonu Dəmirçidam yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.**

Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb. Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**Düşmən artıq uzun müddətdir ki, təxribatlarını təkrarlayır. Keçmiş millət vəkili Həvva Məmmədova ermənilərin ardı-arası kəsilməyən təxribatları barədə ”Şərq”ə danışıb:** ”Ermənilər tarix boyu heç vaxt vədlərini yerinə yetirməyiblər. Onların bu qədər məğlubiyyətdən sonra da ağılları başlarına gəlməyib. Çünki idarəçilikləri öz əllərində deyil. Ermənistanı idarə edən başqa dövlətlər, həmçinin xaricdəki diaspordur. Hakimiyyət xalqını düşünmür. Reallıq isə bundan ibarətdir ki, revanşist niyyətlərindən əl çəkməmələrinə rəğmən, yaratdığı miflər 44 gün ərzində məhv oldu”.

**H.Məmmədova düşünür ki, İrəvan tez-gec reallıqla barışmalı olacaq:** ”Düşmən indiyədək müharibəni təhlil edə bilmir. Çünki daxildə xaotik vəziyyət yaranıb. Ermənistan erməniləri ilə Qarabağ erməniləri üz-üzə gəliblər. Ermənistan erməniləri həmişə olduğu kimi yenə də Qarabağ ermənilərini qəbul etmirlər. Qarabağ ermənilərinə sahib çıxan yoxdur. Bu isə o deməkdir ki, onlar Azərbaycan vətəndaşlığını qəbul etməli olacaqlar. Proseslər ona doğru gedir. Ermənistan hakimiyyəti guya hansısa postlar qurur, ”ordu” yığır. Lakin faktiki olaraq belə bir imkanı yoxdur. ”Silahlı qüvvələrinin” 50-55 yaşlı kişilərdən ibarət olması təsadüfi deyil. Bir sözlə, düşmən dalana dirənib. Bu yolun çıxışı yoxdur.

Proseslər Bakının istədiyi məcrada davam edir. Doğrudur, ermənilər torpaqların tarixi sahiblərinin geri qayıtmalarını həzm edə bilmirlər. Bu isə o deməkdir ki, bizim güc yolundan başqa yolumuz yoxdur”.

**Kənan Novruzov**

# “Rusiya ilə Azərbaycan arasında narazılıq yaradacaq nöqtə yoxdur"

## Əziz Əlibəyli: “Hər iki tərəf yüksək səviyyədə razılaşıb”

Azərbaycan Müdafiə Nazirliyi Ermənistana xəbərdarlıq edib. Nazirliyin yaydığı rəsmi açıqlamada deyilir:

"10 noyabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmayıb.

Son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur.

Azərbaycan ordusu tərəfindən bütün adekvat tədbirlərin görülməsi təmin olunacaqdır”.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəylinin ”Şərq”ə açıqlamasına görə, bu açıqlama birbaşa Ermənistan Müdafiə Nazirliyinin ”bütün silahlardan istifadə edəcəyik” bəyanatına cavab xarakteri daşıyır:** ”Hazırda 2 mühüm problem var: Birincisi, demarkasiya məsələsinin gecikməsi və Paşinyanın başqa yollara əl atması. İkincisi, Qarabağdakı rus sülhməramlılarının nəzarətində olan hissələrdə erməni tərəfinin 10 noyabr razılaşmasından kənara çıxması. Hər iki halda göstərməyə çalışırlar ki, Azərbaycanla Rusiya arasında yüksək səviyyədə narazılıq və toqquşma var. Bütün proseslər də dövlətlərarası münasibətlərdəki gərginliyin tərkib hissəsi kimi izah edilir. Əslində isə belə deyil. Önəmli



məsələ odur ki, Rusiya üçtərəfli bəyanatın yerinə yetirilməsi ilə bağlı Paşinyana ciddi təzyiqlər edir, amma bu, reallaşdırılmır. Bəzi ərazilərimizdə erməni postları qoyulub. Amma onlar artıq Azərbaycan ordusunun nəzarəti altındadır, bir əmrlə məhv edilib yer üzündən silinə bilər”.

**Ə.Əlibəyli qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında gərginlik, narazılıq yaradacaq nöqtə yoxdur.** Hər iki tərəf yüksək səviyyədə razılaşıb: ”Əksinə, Ermənistanın fəaliyyəti bütövlükdə nəzərdə tutulan proqramın icrasına imkan vermir. Ona görə də sülhməramlıların ”fəaliyyəti” Azərbaycan üçün hüquqi əsas yaradır ki, Qarabağ bölgəsində yaxın zamanlarda antiterror əməliyyatları həyata keçirilsin. Digər tərəfdən sərhəd bölgəsində də erməni qoşunu və ordusu bütün silahlarını ölkəmizə qarşı istifadə edəcəksə, ciddi cəzalandırıla bilərlər. Fikrimcə, yaxın vaxtlarda bu məsələ onunla yekunlaşacaq ki, Paşinyan hakimiyyəti itirəcək. Bununla da sərhədlər və müqavilələrlə bağlı Azərbaycanla Rusiya qərar verib məsələni icra edəcəklər. Beləliklə, Paşinyanın arxasında duran Qərb qüvvələrinin regiona təsirləri sıfırlanacaq”.

**Yeganə Bayramova**

# Qarabağa tam sahib olmaq üçün “ağıllı layihə"lər həyata keçirməliyik



### Elxan Şahinoğlu: “Azərbaycanın xeyrinə işləyə biləcək təkliflərin bir mərkəzdə toplanmasına, müzakirəsinə və reallaşdırılmasına ehtiyac var”

"Qarabağdan yenə həyəcanverici xəbərlər gəlir. Rusiya Ermənistandan Qarabağa erməni hərbçilərinin keçidinə şərait yaradır, görüntülər var. Ermənistan hakimiyyətinin sülh sazişinin və sərhədin müəyyənləşdirilməsi məqsədilə delimitasiya və demarkasiya danışıqlarından imtina siyasətinin arxasında da Rusiyadakı siyasi və hərbi mərkəzlərin dəst-xətti hiss olunur. Yoxsa rəsmi İrəvan Ermənistan üçün ağır nəticələnən müharibədən sonra bizə yenə dil uzatmazdı, onu arxayınlaşdıran mərkəzlər var".

**Bu sözləri ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu ”Şərq”ə açıqlamasında deyib.**

Onun fikrincə, hazırkı vəziyyət bizim xeyrimizədir:

”Biz nə istəyirik? Birincisi, Rusiya hərbçiləri 4 ildən sonra Qarabağı tərk etsinlər. İkincisi, Qarabağda Azərbaycan qanunları ilə yaşamaq istəməyən erməni qalmasın və Xankəndi ətrafı ilə birgə nəzarətimizə keçsin ki, bununla 200 illik problemə son nöqtəni qoyaq. Bu mümkündürmü? Çətindir, ancaq hədəflərimizə çatmaq planlarımızdan və onları necə yerinə yetirməmizdən asılıdır. Müharibədən sonrakı dönəmi ”ağıl oyunları” adlandırmışdım. Birinci mərhələdə hərbi yolla məsələnin böyük qismini həll etdik, problemin qalan hissəsini isə hərbi-siyasi-diplomatik, o cümlədən ”ağıllı layihələr”in köməyi ilə həll etməliyik. Qarabağda ağıllı kəndlər və ağıllı qəsəbələr salırıqsa, Qarabağın tamamına nəzarəti bərpa etmək üçün niyə ağıllı layihələr üzərində düşünməyək? Azərbaycan torpaqlarının işğalı dövründə Qarabağda təxminin 100 min erməni yaşayırdı, indi bunun sayı ən azı 4 dəfə azalıb, ancaq məsələnin bizim xeyrimizə tam həlli üçün bu sayı ikirəqəmliyə çevirmək lazımdır. Hələ ki, proses öz axarıyla bizim üçün müsbət istiqamətdə cərəyan edir”.

**E.Şahinoğlu, həmçinin rəsmi Bakının nə etməli olduğunu deyib:**

”Ancaq Rusiya və dünyadakı erməni lobbisi əlindən gələni edəcək ki, Qarabağdakı ermənilərin sayı minimuma enməsin. Bunun üçün onlar Qarabağda evlər tikəcək, ermənilərə pulsuz heyvanlar paylayacaq, kiçik müəssisələr açacaq və kreditlər verəcəklər. Biz isə bunun tam tərsini etməliyik. Qarşımızda Rusiya, Ermənistan, bir qisim Qərb ölkəsi və erməni lobbisi var. Ancaq proseslər bizim ərazimizdə getdiyindən qarşı tərəfin gücündən asılı olmayaraq onların planlarını pozmaq və öz oyunumuzu diktə etmək imkanımız var. Hazırda Qarabağda yaşayan ermənilərin su problemi yaranıb. Başqa çeşidli problemlərini də yaratmalıyıq. Elə etməliyik ki, Qarabağdakı ermənilərin gənc nəsli Ermənistana və Rusiyaya köç etsinlər, işçi qüvvəsi çatışmasın, İrandan Qarabağa bizə bəlli olmayan yüklər daşınmasın. Bunun yolları var, sadəcə, Azərbaycanın xeyrinə işləyə biləcək təkliflərin bir mərkəzdə toplanmasına, müzakirəsinə və reallaşdırılmasına ehtiyac var”.

**Kənan Novruzov**

## Cahangir Məmmədlidən dəstək



**“Azərbaycan Türk ocaqları” İctimai Birliyinin başqanı Akif Aşırlının qardaş ölkə Türkiyədəki yanğınlarda zərərçəkmişlərə dəstək kampaniyası olduqca təqdirəlayiqdir.** Bu, iki dövlətin ən çətin anda bir-birilərinə dəstək vermələrinin növbəti təzahürü, ”İki dövlət, bir millət” prinsipinin tərənnümüdür. Odur ki, yaxın dostumuz Akif müəllimə minnətdarlığımı bildirir, qələm yoldaşlarımızı aksiyaya qoşulmağa dəvət edirəm.

**Cahangir Məmmədli, professor**

## Cəlilabadın polis rəisi işdən çıxarılıb

### Mübariz Quliyev toy mərasimində karantin rejimi qaydalarının pozulması faktına göz yumub



**Cəlilabad Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Mübariz Quliyev vəzifəsindən azad edilərək sərəncama götürülüb.**

“Report”un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, bununla bağlı daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev ”Report”a faktı təsdiqləyib.

*Qeyd edək ki, M.Quliyev bir neçə gün öncə rayon ərazisindəki restoranda keçirilən toy mərasimində karantin rejimi qaydalarının pozulması faktına göz yumub. Araşdırma zamanı müəyyən edilib ki, onun həmin restoran sahibi ilə yaxın münasibətləri olub.*

# Sülhməramlılar məsuliyyəti artırmalıdır



"Ermənistan sərhəddə təxribatlar törətməklə regionda vəziyyəti məqsədli şəkildə gərginləşdirir. Təbii ki, Azərbaycan ordusu tərəfindən bütün adekvat tədbirlərin görülməsi təmin olunur və bundan sonra da təmin olunacaq".

*”Şərq” xəbər verir ki, bu barədə millət vəkili Könül Nurullayeva bildirib. Xanım parlamentari qeyd edib ki, erməni təxribatları ilk növbədə 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın kobud şəkildə pozulmasıdır:* ”Bu ölkənin yeni Müdafiə naziri Arşak Karapetyan da sələfləridək terrorçu kimi danışır. Bu gün faktiki ordusuz qalan Karapetyanın ”güc tətbiq etmək hüququnu özümüzdə saxlayırıq” deməsi isə blefdən başqa bir şey deyil. Çünki güc tətbiq etmək hüququ kifayət deyil. Burada təbii ki, hərbi imkanların səviyyəsi əsas məsələdir.

Azərbaycan Müdafiə Nazirliyinin rəsmi bəyanatında da haqlı olaraq sabiq müdafiə naziri David Tonoyanın aqibəti bir daha xatırladılır. O da vaxtilə ”yeni ərazilər üçün yeni müharibələr” sayıqlaması ilə çıxış etmişdi. Amma onun və ölkəsinin 44 günlük Vətən müharibəsində aqibətini bütün dünya gördü. Yəni 9 ay əvvəl ordusu rüsvayçı şəkildə darmadağın olmuş bir forpostun müdafiə nazirinin bu gün yenə revanşizmə meyillənməsi əslində bu ölkənin özü üçün ciddi təhlükədir. Azərbaycan yeni nəsil müharibənin qalibi, dünyanın 50 ən güclü ordusundan biri, regionun ən güclü Silahlı Qüvvələrinə sahib ölkə kimi yarana biləcək bütün təhlükələrin öhdəsindən gəlmək gücündədir”.



### Könül Nurullayeva: “Ermənistanın sərhəd təxribatları delimitasiya və demarkasiya prosesini əngəlləməyə hesablanıb”

**Parlament üzvü qeyd edib ki, bu məqamda sülhməramlıların məsuliyyətini xatırlatmaq lazımdır:**

Rusiya sülhməramlı qüvvələri üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır. Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatında da qeyd olunduğu kimi, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmayıb. Eyni zamanda Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur. Bu isə istər hüquqi, istərsə də siyasi baxımdan yolverilməzdir. Azərbaycan postmüharibə hədəflərini yerinə yetirir. Ali Baş Komandan İlham Əliyevin də bəyan etdiyi kimi, ”biz qalib gəlmişik. Ermənistan məğlub olub, bu məğlubiyyətlə barışmağa məcbur olub”. Bütün maraqlı tərəflər 10 noyabr və 11 yanvar bəyanatlarında əksini tapan şərtlərin icrasını istəyir. Ermənistanın öz təxribatçı əməllərinə KTMT-ni cəlb etmək cəhdi isə növbəti dəfə iflasa uğradı. KTMT-nin baş katibi Stanislav Zasın son bəyanatından da aydın olur ki, təşkilat baş verənləri Ermənistanın arzuladığı kimi yox, sərhəd insidenti kimi qəbul edir. Zasın bu açıqlaması Ermənistan rəhbərliyini məyus etdi. Ümumiyyətlə, Ermənistanın son davranışlarından aydın görünür ki, İrəvan ümidlərini bu ilin dekabrında KTMT-yə edəcəyi sədrliyə bağlayıb. Lakin Paşinyan və onun komandası ilk növbədə hərbi təşkilata üzv ölkələrin Azərbaycana yüksək səviyyəli münasibətini və 44 günlük savaş dövründə proseslərlə bağlı mövqeyini unutmamalıdır. Onu da unutmamalıdır ki, Azərbaycan yeni reallıqları diktə edir, bu reallıqları qəbul etmək isə Ermənistanın son və yeganə şansıdır”.

**Yeganə**



**Məmurlar öz biznesləri ilə məşğuldur, kabinetlərdə oturub, dövlətin pulunu göyə sovururlar**

# Köhnə viruslar da yenidən baş qaldırdı

## İstirahətə gedənlərin əksəriyyəti indi xəstəxanaların dəhlizlərində qalıb

"Giley-güzarı sevmirəm. Pozitiv olmağa çalışıram. Amma son üç günü uşaqlarımla təcili yardım maşınları və xəstəxana koridorlarında qalmağıma üsyan edirəm. Evindən sağlam istirahətə gedən, dağda-dərədə təmiz hava alacağını zənn edib yüksək hərarət və mədə-bağırsaq pozuntulu naməlum virusla başbaşa qalan təkcə mənəm?! Biz heç, gərək uşaqlara toxunmazdız..."

Bu ifadələr "Hamida Rustamova" adlı sosial şəbəkə istifadəçisinin statusunda yer alıb. Görünür ki, xanım istirahətə gedib, amma peşman qayıdıb. Çünki körpələri xəstələnib. Bu statusun ardınca digərləri də gəlir. Sosial şəbəkə istifadəçilərinə sanki bir qığılcım lazımmış. Əksəriyyət eyni problemdən şikayətlənir, uşaqlar arasında xəstəliklərin artdığını yazırlar, səhiyyə sistemini də sərt tənqid edirlər:

**Sağlam gedib xəstə qayıdanlar**

**Elnurə Abuşova:** Statuslarda oxuyuram, əksər körpə uşaqlar və uşaqlarıyla təmiz hava üçün istirahətə gedənlərin əksəriyyəti indi xəstəxana dəhlizlərindədir. Aralarında dənizə, hovuza girməyənlər də var. Masallı, Qəbələ və digər rayonlar. Nə baş verir? Niyə ölkənin Baş pediatrı mətbuat konfransı edib açıqlama vermir? Niyə rəsmi səhifələrində valideynlərə ürək-dirək və ev şəraitində yardım üçün göstərişlər verilmir? Səhifələri elə "Covid" statistikası üçündü? Havaya özləri virus buraxan adamlar kimi vəziyyətdən məmnundular. Yəqin bəhanə edib bütün uşaqları peyvəndləyəcəklər. Bu vəziyyət səhiyyədəkilərin hamısına sərf edir. Həm həkim-tibb bacılarının cibləri dolur, həm apteklərin və analiz laboratoriyalarının kassası. İnsanın sağlamlıq faktoru səhiyyədəkiləri düşündürən ən axırıncı məsələdir, bəlkə heç söz mövzusu da deyil...

**Aydın Abışzadə:** Xanım, bu ölkədəki bütün nazirliklərin işi yarıtmaz səviyyədədi. Nazirlərin və müavinlərinin gündəlik məşğul olduqları iş öz bizneslərididir. Kabinetlərində oturub, dövlətin pulu ilə, maşınları ilə öz işlərini görürlər.

**Arifə Əliyeva:** Biz 10 gün Nabranda qaldıq, şükür, uşaq xəstələnmədi. Vallah, valideynlər də diqqətli olmalıdırlar. Mən Gülayın saçını yaş saxlamadım. Amma, orda bəzi uşaqlar tez xəstələndi.

**Seva Salayeva:** İcbari tibbi sığortanın "Qaynar xətt"i işləmir. Neçə dəfə şikayət etmişəm, heç veclərinə də deyil. Elə bil belə də olmalıdır. Gücləri də ancaq millətə çatır. "TƏBİB"in, İTS-nin fəaliyyəti sıfırdır. Heyif, ayda 2 faiz onlara keçirirəm. Elə otursunlar, siz demiş, statistika ilə məşğul olsunlar...

**Hamida Rustamova:** Qubanın Qımılqazma, Qələdüz, Qusarın - ad çəkməyəcəm, məşhur istirahət mərkəzində olduq. Təzə qidalar qəbul etdik. Dənizə, hovuza girmədik. Bundan bir müddət öncə cənub zonasında olduq. Heç bir problem olmadı. Amma şimaldan xəstə gəldik.

**Təranə Alməmmədova:** Qəbələyə gəlməyən millət yoxdur, elə olacaq da



*Hovuzlar, dəniz suyu, sahil mikrob mənbəyidir. Və bu baxımdan təhlükəlidir. Uşaqlar daha çox çirkli su mənbələrindən yoluxurlar*

**Baş pediatr izah verdi**

Sosial şəbəkə istifadəçilərinin narazılığı, tənqidləri öz yerində.

**Bu arada Səhiyyə Nazirliyinin baş pediatrı Erkin Rəhimov son zamanlar uşaqlar arasında hərarət, mədə-bağırsaq pozulması, ağzın yara tökməsi kimi əlamətlərlə özünü büruzə verən xəstəliyin yayılması və bunun dəniz vasitəsilə keçməsi barədə yayılan məlumatlara aydınlıq gətirib.** Baş pediatr APA-ya açıqlamasında yay fəslinə aid bəzi virusların olduğunu, onların daha sıx yayıldığını bildirib: "Məsələn, rotavirus, adenovirus mədə-bağırsaq pozulmasına səbəb olan, qızdırma ilə olan viruslardır. Bir də koksakiviruslar var ki, bu da əlin, ayağın içində, ağızda yayılan, herpes qrupuna aid olan əl-ağız-ayaq virusu dediyimiz virusdur. Bu, may ayında başlayaraq sentyabra qədər sıx yayılır. Bu xəstəlikdə səpkilər, hərarət, iştahsızlıq olur, nadir hallarda boğaz ağrısı da ola bilər. Eyni zamanda, yayda suçiçəyi də geniş yayılır". E.Rəhimov deyib ki, hazırda epidemioloji olaraq ölkədə çox geniş yayılan bir virus yoxdur. "Zaman-zaman respirator viruslar da yayılır, bu da xışıltılı öskürəklə, qızdırma ilə müşahidə olunur. Amma bunun da epidemioloji olaraq çox geniş yayıldığını görmürəm. Dənizdən virus yayıla bilər məsələsinə gəldikdə isə, uşaqlara daha çox dənizdə olan digər xəstə uşaqlardan virus keçir. Yəni uşaqlar bir-biri ilə ünsiyyətdə olduqca virus da yayılır. Rotavirus əslində su ilə yoluxa bilər, suyu udmaqla o virusu daxilə qəbul etmək olur. Amma tənəffüs yolları virusu su ilə yoluxmur, onlar hava-damcı yolu ilə yayılır", - deyə baş pediatr vurğulayıb.



## Qusma, qızdırma, ishal, halsızlıq, diareya əlamətləri özünü göstərməyə başlayır

**Onların heç biri COVİD deyil**

**Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov da "Şərq"ə açıqlamasında hazırda azyaşlılar arasında virus xəstəliklərinin geniş yayıldığını dedi:**

- Koronavirusun tüğyan etdiyi bir dövrdə onunla yanaşı digər bakterial xəstəliklər də yayılıb. İyun-iyul ayları və avqustun birinci ongünlüyünə olan statistikaya əsasən uşaqlar arasında rotavirus geniş yayılıb. Bu, bizim uzun illərdir tanıdığımız virusdur və təmas vasitəsilə orqanizmə daxil olur. Hər tərəfdə müxtəlif mikroblar, bakteriyalar var, uşaqlar əllərini nəyəsə vurur, nəsə götürür, sonra da əlini ağzına aparır, beləliklə də əllərdə, hansısa əşya üzərindəki mikrob orqanizmə düşür. Nəticədə qusma, qızdırma, ishal, halsızlıq, diareya əlamətləri özünü göstərməyə başlayır. Hovuzlar, dəniz suyu, sahil mikrob mənbəyidir. Və bu baxımdan təhlükəlidir. Uşaqlar daha çox çirkli su mənbələrindən yoluxurlar. Təhlükə yalnız bunlarda deyil. Azyaşlıların bir iqlim şəraitindən digər iqlim şəraitinə düşməsi də onların orqanizmində pozğunluq yarada bilir. Yuxarı yaşda olan insanlar başqa bir əraziyə gedəndə müəyyən dəyişiklik hiss edirlər, o ki ola uşaqlar. Valideynlər bu məsələlərdə diqqətli olmalıdır. Uşaqların gigiyenasına, təmizliyinə, qidasına fikir verməlidirlər. Ümumiyyətlə, uşaqlara qarşı həddsiz diqqətli olmaq lazımdır. Uşaqları aparırlar çimərliyə. Baxırsan ki, körpə uşaq uzun müddətdir günəş şüası altında əyləşib. Əlbəttə, o uşaqda günvurma əmələ gələcək, halı pisləşəcək, evə qayıdanda qaytaracaq, qızdırması qalxacaq. Çimərliyin də şərtləri var, günəş vannası qəbul etməyin də. Valideynlərsə bəzən səhlənkar davranır, nəticədə uşaqlar müxtəlif viruslara yoluxur, xəstələnirlər.

*Ş.Məmmədov eyni zamanda qeyd etdi ki, uşaqların hazırda keçirdiyi narahatlıqların koronavirusla heç bir bağlantısı yoxdur:*

- Bunlar bizim illərdir tanıdığımız, köhnə viruslardır və həmişə də olublar. Məsələn, bağırsaq infeksiyaları hər zaman olub və var. Azyaşlı uşaqlar bundan əziyyət çəkir. Valideynlər sahə həkimlərinə, yaxud da ailə həkimlərinə müraciət etsinlər və uşaqlarla bağlı lazımi müalicə prosedurunu yerinə yetirsinlər.

**Mələhət Rzayeva**

# Rusiyanın vasitəçiliyinə artıq son verilməlidir



## Rus sülhməramlılarını erməni terrorçuların müdafiəetmə əsası ilə ərazilərimizdən çıxarmalıyıq

"10 noyabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmayıb".

Bu barədə Müdafiə Nazirliyinin yaydığı açıqlamada qeyd edilib.

Bildirilib ki, son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur.

Nazirlikdən bildirilib ki, Rusiya Federasiyası sülhməramlı qüvvələri üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır.

**Sabiq baş nazir, Xalq Partiyasının sədri Pənah Hüseyn "Şərq"ə açıqlamasında qeyd edib ki, 10 noyabr tarixli bəyanata əsasən Azərbaycan ərazisindəki qeyri-qanuni erməni birləşmələri çıxarılmalıdır:** "Həmin sənəddə torpaqlarımızda erməni silahlı qüvvələrinin olması nəzərdə tutulmayıb. Ona görə də Azərbaycan tərəfi tam şəkildə antiterror əməliyyatları aparmalıdır. Rusiya ya bu əməliyyatlara kömək etməli, ya da mane olmamalıdır. Mane olarlarsa, rus sülhməramlılarını erməni terroristləri müdafiə etmə əsası ilə ərazilərimizdən çıxarmalıyıq.

Son günlər ermənilər məlumat yayırdılar ki, guya, Azərbaycan tərəfi onlara atəş açır. Çox güman ki , Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə postlar qurmaqla hazırlıq görürlər".

**P.Hüseynin qənaətincə, rus sülhməramlıların hansı mövqe tutmasından asılı olmayaraq çoxdandır ki, silahlı qüvvələrimizin antiterror əməliyyatı keçirilməsini tələb edirik:** "Əlbəttə ki, Rusiya da bunu nəzərə almalıdır. Azərbaycan Müdafiə Nazirliyi də cəmiyyətimizin iradəsini ifadə edib. Xalqımız bu istiqamətdə olan bütün hərəkətləri dəstəkləyəcək. Məlumdur ki, Rusiya üçtərəfli sazişin təminatçısıdır. Bu baxımdan Müdafiə Nazirliyi dərhal hərəkətə keçməlidir".

**Yeganə Bayramova**

## Etibar Mirzəyev: Türkiyədəki yanğın ocaqlarında artıq son işlər görülür

**Artıq demək olar ki, yanğınlar nəzarət altındadır. Sabah (bu gün) yanğınlarla bağlı şad xəbərlər eşidəcəyik.**

Sputnik Azərbaycan xəbər verir ki, bunu Muğladakı böhran mərkəzində keçirilən müşavirədən sonra jurnalistlərə açıqlama verən Fövqəladə Hallar Nazirinin müavini Etibar Mirzəyev deyib.

Nazir müavini qeyd edib ki, Muğlada böhran mərkəzində keçirilən 3 saata yaxın müzakirə başa çatıb. Bu gün Köycəğiz və Bodrum ətrafında yanğınlar baş verib. Digər yanğınlar nəzarət altındadır.

## KXCP və Yeni Zaman Partiyası ofislə təmin olunub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, fəaliyyət imkanlarının genişləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması məqsədilə siyasi partiyaların dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələri ilə təminatı prosesi davam etdirilir.**

İqtisadiyyat Nazirliyindən verilən məlkumata görə, nazirlik yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən daha 2 siyasi partiyaya fəaliyyət göstərməleri üçün ofis sahəsi təqdim edilib.

*Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Fəttayev və Yeni Zaman Partiyasının sədri Musa Ağayev fəaliyyət göstərəcəkləri ofislərlə tanış olublar.*

# "Azərbaycan heyəti yanğından yanğına qaçır"

## Yanğınsöndürənlərimizin fədakarlığı Türkiyə mediasının diqqətindədir



**Azər Həsrət:**
*"Biz Türkiyə ilə nəfəs alırıq. Ona görə FHN-in əməkdaşları bütün varlıqları ilə, bəzən də həyatlarını təhlükəyə ataraq yanğınların söndürülməsi üçün əllərindən gələni edirlər"*

Türkiyədə baş verən və gündərdir davam edən meşə yanğınlarının söndürülməsinə dəstək olmaq üçün Azərbaycandan göndərilən yanğınsöndürənlər qardaş ölkədə böyük sevgi ilə qarşılanıb. Yanğınsöndürənlərimizin fədakarlığı Türkiyə mediasının da diqqətindən kənarda qalmayıb.

"CNN Türk" telekanalı qəzetlərdə gündəlik çıxan xəbərləri incələyərkən azərbaycanlı yanğınsöndürənlərin əməyini yüksək qiymətləndirib. Proqramda "Türkiyə" qəzetinin "Azərbaycan heyəti yanğından yanğına qaçır" başlıqlı yazısına xüsusi diqqət çəkilib. Proqramın aparıcısı yanğınsöndürənlərimizin Ana Vətənlərindəki kimi çalışdıqlarını xüsusi qeyd edib. Bu arada, "Türkiyə" qəzetinin sözügedən yazısında Azərbaycanın çətin zamanlarda yanında olan Türkiyəni meşə yanğınlarında yalnız buraxmadığı vurğulanır. Qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyev meşə yanğınlarında dəstək üçün qardaş ölkəyə 93 yanğınsöndürən maşın, bir helikopter və 710 nəfərlik heyət göndərib. Tapşırıqdan tapşırığa qaçan heyətin 200



nəfərlik hissəsi Aydın vilayətinin Çine bölgəsində yanğınsöndürmə işlərinə qatılıb. "Sabah" qəzeti də yanğınsöndürənlərimizin xidmətinə biganə qalmayıb. Qəzet yazır ki, "azərbaycanlı yanğınsöndürənlər eyni dili danışdıqları Türkiyədə yerli xalqla dialoq qurmaqda da heç bir çətinlik çəkmirlər". "Takvim" qəzeti isə yazır ki, "Türkiyə Qarabağda qardaşlarını yalnız buraxmadı, Azərbaycan heyəti də Egedə yanğınların üzərinə atıldı. İki ölkənin qardaşlığını yenidən təsdiqlədi". Yazıda daha sonra qeyd olunur ki, "azərbaycanlı qardaşların qazma-bellə dağlarda yanğınla mübarizəsi göz oxşayır".

Qeyd edək ki, Türkiyədə sosial mediada sadə vətəndaşlar da göstərilən dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə minlərlə təşəkkür mesajları ünvanlayıblar və yanğınsöndürənlərimizin fədakarlığını yüksək qiymətləndirərək onlara təşəkkürlərini bildiriblər.

**Siyasi-şərhçi Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları qardaş Türkiyə xalqına bu çətin anlarda çox yaxından dəstək verir.** O vurğulayıb ki, onlar bütün varlıqları ilə, bəzən də həyatlarını təhlükəyə ataraq yanğınların söndürülməsi üçün əllərindən gələni edirlər: "Bilirsiniz ki, bütün xalqımız Türkiyə xalqı ilə həmrəydir. Həmçinin, Azərbaycan dövləti də Türkiyə ilə həmrəydir. Təbiidir ki, İlham Əliyevin şəxsən özü yanğınla bağlı Rəcəb Tayyib Ərdoğanla daim əlaqə saxlayıb. Daimi olaraq xarici işlər nazirlərimiz də informasiya mübadiləsi edirlər. Yəni Azərbaycan bir növ Türkiyə ilə nəfəs alır. O baxımdan bizim əməkdaşlarımız da deyilənlərdən əslən geri qalmırlar. Və bacardıqlarından da artıq can fəda edərək qardaş ölkəyə, qardaş xalqa dəstək verirlər. Əlbəttə ki, bu da Türkiyə mediasının və ictimai rəyinin diqqətini cəlb etməyə bilməz. Ona görə də Türkiyədən çoxsaylı insanlar azərbaycanlıların təqdirlərini dilə gətirməkdə xəsislik etmirlər".

**Aynurə Pənahqızı**





Elçin Əfəndi: “Son 2 ildə imtahan nəticələrində müəyyən qədər aşağı göstəricilərin şahidi oluruq”

# 600 bal toplayanların sayında da azalma var

Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən I və IV ixtisas qrupları üzrə 27-28 iyul 2021-ci il tarixlərində keçirilmiş qəbul imtahanlarının nəticələri elan edilib. Bu imtahanda I ixtisas qrupu üzrə ən yüksək nəticəni 400 bal toplayan 11 nəfər abituriyent göstərib.

Sumqayıt şəhəri 11 saylı orta məktəbin məzunu hər iki mərhələnin cəminə görə 697,1 bal toplayıb və bu nəticə I ixtisas qrupu üzrə ən yüksək baldır.

Bu imtahanda IV ixtisas qrupu üzrə ən yüksək nəticəni isə 400 bal toplayan 2 nəfər - Cəbrayıl rayonu Sirik kənd orta məktəbi və Quba rayonu Rustov kənd orta məktəbinin məzunları göstəriblər.

**Nəticələrlə bağlı ”Şərq”ə danışan təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, ötən illərlə müqayisədə bu il 700 bal toplayan abituriyent olmadı:** ”Düzdür, 700 bal yığanların olması ümumi təhsilin göstəricisi ola bilməz. Amma 600-dən yuxarı bal toplayan abituriyentlərin sayında da kifayət qədər azalma var. Son 2 ildə imtahan nəticələrində müəyyən qədər aşağı göstəricilərin şahidi oluruq.

Bunun da birbaşa səbəbi pandemiya ilə əlaqədar olaraq şagirdlərin ciddi şəkildə hazırlaşa bilməməsidir.

Şagirdlər məktəbdən, dərslərdən uzaq qalmaqla müəyyən mövzulara tam dərinliyi ilə sahiblənə bilmədilər.

Nəticədə orta ümumtəhsil məktəbində nəticələrin aşağı olması, buraxılış imtahanlarında yüksək nəticələrin qeydə alınmaması, həmçinin ali təhsilə qəbulda çox yüksək nəticələrin olmaması onu deməyə əsas verir ki, yenidən ənənəvi təhsilə qayıtmalıyıq. Əks halda pandemiya təhsilə öz təsirini göstərməyə davam edəcək.

Bütün bunlar onu deməyə əsas verir ki, növbəti tədris ili ənənəvi qaydada başlamalıdır. Düzdür, şagirdlər pandemiya dövründən üzüağ çıxa bildilər.

Bir var nəticələr tamamilə aşağı olsun, bir də var ki, ən azı orta və yaxud yüksək səviyyəyə bir qədər yaxın nəticələr əldə edilsin.

İmtahan nəticələri pandemiya dövrü üçün qənaətbəxş hesab oluna bilər, ancaq ümumi göstərici baxımından qaneedici nəticələr deyil”.

**Yeganə Bayramova**

## Koronavirusa yoluxanların sayı 2000-i keçdi

### Analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 2 396 yeni yoluxma faktı qeydə alınıb, 674 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 357 058 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 336 445 nəfər müalicə olunaraq sağalıb, 5 095 nəfər vəfat edib, aktiv xəstə sayı 15518 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 13 792, ötən müddət ərzində isə ümumilikdə 4 147 588 test aparılıb.*

## Güclü külək Qərb bölgəsində fəsadlar törədib

### Bir neçə rayonda ağaclar sınıb, elektrik enerjisinin verilməsi dayandırılıb



**Güclü külək dünən günorta və axşam saatlarında Qərb bölgəsinin bir neçə rayonunda fəsadlar törədib, ağaclar sınıb, elektrik enerjisinin verilməsi dayandırılıb.**

”Report”un Qərb Mərkəzinin məlumatına görə, sərt hava şəraiti Daşkəsən rayonu ilə yanaşı, Göygöl rayonunda da fəsadlar törədib, ağaclar sınıb. Bəzi vətəndaşların fərdi təsərrüfatına ziyan dəyib.

Daşkəsən və Göygöl rayonlarında güclü ildırım çaxıb, yağış yağır.

Daşkəsən, Şəmkir, Göygöl, Samux rayonlarında, həmçinin Gəncə şəhərində küləkli hava şəraiti müşahidə olunur.



## “Azərişıq" əməkdaşı iş başında faciəvi şəkildə öldü

**Abşeron rayonu, MD-23 qəsəbəsi ərazisində 1962-ci il təvəllüdlü Bayrampur Ehtimat Bayraməli oğlunun elektrik cərəyanı vurması nəticəsində ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Abşeron Rayon Prokurorluğunda aparılan araşdırmalarla müəyyən edilib ki, ”Azərişıq” ASC-nin Biləcəri Elektrik Təchizatı və Satışı Sahəsi Enerji İstismar Şöbəsində elektrikmontyor işləyən Ehtimat Bayrampur qeyd edilən ərazidə yerləşən ”AZENCO” ASC-nin ərazisində yüksək cərəyanlı yeraltı kabeldə yaranmış nasazlıqla bağlı təmir işləri apararkən elektrik cərəyanının vurması nəticəsində hadisə yerində ölüb.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

**Yay mövsümündə üz tutduğumuz əsas ünvanlardan biri olan çimərliklər, həm də sanitar-gigiyena qaydalarına xüsusi olaraq əməl etməli olduğumuz məkanlardır.**




# Təmizlik, intizam gərək insanın canında olsun

## Çimərliklərdə polis məntəqələrinin yaradılması problemləri həll etməyəcək

Hər kəsin istəyidir ki, getdiyi çimərlik təmiz, səliqəli, bir sözlə ürəkaçan olsun.

Əfsuslar olsun ki, bəzən arzuladığımızın əksi olan mənzərə ilə qarşılaşırıq. Suyun üzərində ”üzən” zibil tullantıları, dənizin iyinə qarışan üfunət qoxusu, qumun hamarlığını pozan plastik qablar və s. Son günlər sosial mediada bir qrup insanın çimərlik ərazisini qəsdən çirkləndirməsilə bağlı görüntülər yayılıb. Bu da vətəndaşlar arasında ciddi narazılıq doğurub. Düzdür, hadisəni törədən şəxslər cərimələnsələr də, şikayətlərin ardı kəsilmir. Bəs bu cür halların qarşısını almaq üçün nə etmək lazımdır?

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, Azərbaycan Ekologiya Standartlarının Monitorinqi Fondunun prezidenti, ekoloq Rauf Sultanov ”Report”a açıqlamasında deyib ki, çimərliklərin çirkləndirilməsinin əsas səbəbi əraziyə nəzarətin zəif olmasıdır. Ekoloq çimərliklərdə təmizliyə nəzarətin təmin olunması və digər hadisələrin baş verməməsi üçün polis məntəqələrinin yaradılmasını təklif edib: ”Əhaliyə ictimai nəzarət çox çətindir, ancaq mümkünsüz deyil. İnsanlar etdikləri hərəkətlərin cinayət olduğunu dərk etməlidirlər. Əgər bunu anlamırlarsa, məsələyə polisin qarışması olduqca vacibdir”.

**Sosioloq Lalə Mehralı ”Şərq”ə açıqlamasında təklif edib ki, belə şəxslərə qarşı yalnız və yalnız radikal addımlar atılmalıdır:** ”Məsələ ondadır ki, təmizliyi və ədab-ərkanı kiməsə öyrətməklə olmur. Bu qanla, genlə gəlir. Bəzi insanlar var ki, onlara nə qədər təlqin edirsən ki, təmizliyə riayət et, ancaq xeyiri yoxdur. Əgər bir insan bir də gedəcəyi yeri zibilləyirsə, bunun dolayısıyla özünə təsirinin olduğunun fərqində deyilsə və çirkləndirdiyi ərazinin əhəmiyyətini qavramırsa, onu tərbiyələndirmə üsulu ilə heç zaman tərbiyə edə bilmərik. Təbii ki, bu cür hallarla mübarizədə polis məntəqələrinin yaradılmasını mən də məqsədəuyğun hesab edirəm. Həmçinin, mən yerindəcə ciddi miqdarda cərimənin tərəfdarıyam”.

**Aynurə Pənahqızı**

# Antitürk davranışların hədəfi Türkiyədir

*Vaxt gələcək terrorçu təşkilatlar Qərb üçün böyük təhlükə olacaq*



İsveçrənin Türkiyədəki səfirliyinin müvəqqəti işlər vəkili bu ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. Buna səbəb İsveçrənin Cenevrə şəhərində PKK/YPG terror təşkilatının nümayəndəliyinin açılmasıdır. Bildirilib ki, PKK/YPG terror təşkilatı və ona bağlı qruplaşmaların müxtəlif dərnək və qeyri-hökumət təşkilatları adı ilə təbliğat aparmalarına və terrorçuluq fəaliyyətlərini qanuniləşdirməsinə heç bir şəkildə icazə verilməməlidir.

"Biz terrorçuluqla mübarizədə terror təşkilatları arasında ayrı-seçkiliyin yolverilməz olduğunu hesab edirik. Özlərini hədəf almır deyə terror təşkilatlarına qucaq açanlara bunun üçün bir gün özlərinə də toxunacağını xatırlatmaqda fayda var. Türkiyə Avropa İttifaqının terror təşkilatı kimi tanıdığı PKK ve ona bağlı qruplaşmalarla mübarizəsini qətiyyətlə davam etdirəcək", - məlumatda vurğulanıb.

"Müstəqil Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli məsələ barədə "Şərq"ə danışıb:

"Son dövrlərdə İsveçrənin antitürk davranışları daha intensiv xarakter almağa başlayıb. Bu ölkənin müxtəlif rəsmi qurumlarının 44 günlük savaş dövründə və ondan sonrakı mərhələdə Ermənistanın hərbi-siyasi avantüralarına dəstək verdiyi hər kəsə məlumdur. Və bu, İsveçrədə, eləcə də, digər bəzi Qərb ölkələrində "səlib yürüşü" prinsipinə hələ də sadiq qalındığını büruzə verir. Məsələ ondadır ki, PKK/YPG yalnız İsveçrə tərəfindən dəstəklənmir. PKK/YPG terrorçularının dəstəklənməsində ABŞ, Almaniya, Fransa və s. ölkələr xüsusi fəallıq göstərirlər. ABŞ PKK/YPG terrorçularına hərbi təlimlər keçir, silah-sursatla təmin edir. Fransa xüsusi xidmət servislərinə bağlı şəxslərin bu terrorçu qruplaşmalar üçün terrorizm fəaliyyəti üzrə strategiya hazırladıqları barədə də məlumat var. PKK/YPG-nin əsas maliyyə dayaqlarının isə Avropada olduğu da heç kəsə sirr deyil. Bu terrorçu qruplaşmaların ən çox maliyyə dəstəyini Almaniya üzərindən aldığı artıq sübuta yetirilmiş reallıqdır. Eyni zamanda PKK/YPG terrorçularının Almaniya ərazisində müxtəlif adlar altında geniş şəkildə təşkilatlanıb, fəaliyyət göstərdikləri də məlumdur. Yəni İraqda və Suriyada yerləşən PKK/YPG düşərgələri əslində Türkiyəyə qarşı planlı terrorizm senarilərinin yalnız üzdə görünən hissəsidir. Bütün bunları nəzərə aldıqda İsveçrənin də PKK/YPG terrorçularına dəstək verən ölkələrin sırasında yer alması qətiyyən təəccüb doğurmamalıdır. Çünki bütün bunlar Türkiyəyə qarşı ümumi strategiyanın tərkib hissəsidir. Bəzi Qərb ölkələri Türkiyəni zəiflətmək üçün məhz belə metodlardan istifadə edirlər. Yəqin ki, bu, hələ uzun müddət davam edəcək".

**E.Xalidbəylinin fikrincə, sözügedən terror təşkilatı haçansa Qərbin özü üçün də təhlükə yaradacaq:**

"PKK/YPG terrorçularına Qərbin dəstəyi yalnız bu qruplaşmaların Avropa ölkələrində terror aktı törətməsindən sonra dayandırıla bilər. Vaxtilə ermənilərin terror təşkilatı ASALA Avropa da daxil olmaqla bütün dünyada Türkiyə diplomatlarını qətlə yetirirdi. Ancaq Qərb ölkələri öz ərazilərində açıq şəkildə fəaliyyət göstərən ASALA-ya qarşı heç bir addım atmırdılar. Və nəticədə bir müddətdən sonra ASALA ərazilərində fəaliyyət göstərdiyi ölkələrə qarşı da terror aktı törətməyə, onları şantaj etməyə başladı. Həmin dövrdə ASALA-nın ən dəhşətli terror aktları bu terrorçu təşkilatı maliyyə və silah-sursatla bəsləyən Fransanın payına düşdü. Məhz bundan sonra Fransa ASALA-nın məhv edilməsi istiqamətində addımlar atmağa başladı. Yəqin, nə vaxtsa, PKK/YPG də İsveçrə və bu terrorçu təşkilatı dəstəkləyən digər Qərb ölkələrinə qarşı terror aksiyaları törədəcək. Nəticədə PKK/YPG Qərb ölkələri üçün "bizim terror təşkilatımız" kateqoriyasındakı yerini itirməyə başlayacaq. Və Qərb ölkələri özlərinin yaradıb, gücləndirdikləri PKK/YPG-ni məhv etmək məcburiyyətində qalacaqlar".

**Kənan Novruzov**



## Ermənilər radikal millətdir

Paşinyan üçün çox çətin olacaq

**Ermənistanda daxili vəziyyət yenidən xaotikləşməkdədir. Proseslər seçkilərdən əvvəlki xarakterə qayıdır. Yenə də ağız deyəni qulaq eşitmir. Və, ümumiyyətlə, kimsə kimsəni dinləmək istəmir. Xalq hakimiyyətə etimad göstərmir, iqtidar isə vətəndaşlarını görməzdən gəlir.**

**Politoloq Qabil Hüseynli düşmən ölkədəki daxili vəziyyəti "Şərq"ə dəyərləndirib:**

"Ermənilər maksimalist, radikal xalqdırlar. Paşinyan vətəndaşların "əl-ayağını asanlıqla yığa bilməyəcək".

"Dənizdən-dənizə dövlət" istəyən toplum baş nazirin siyasətdə labüd olan kompromislərini qəbul etmir.

Ona görə də sülh danışıqları, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin müəyyənləşməsi prosesi gecikir".

**Q.Hüseynlinin fikincə, prosesləri idarə etmək Paşinyan üçün çox çətin olacaq:**

"O, seçkidə qalib gəlməsinə rəğmən, situasiyaya tam nəzarət edə bilmir. Amma Rusiya və Fransa baş naziri müdafiə edir. Üstəlik, hakimiyyətə gələcək başqa real namizəd də yoxdur. Bu isə o deməkdir ki, Ermənistan xalqı öz seçiminə hörmət edərək Paşinyana tabe olmalıdır. Lakin onun həyatına suiqəsd gözlənilir. Bu da məhz hakimiyyətə alternativ siyasətçinin olmaması ilə əlaqədardır".

**Kənan**

# Gizli planlar var

*ABŞ istəyir ki, "Taliban"ı qəddar və vəhşi kimi göstərib, Əfqanıstanı bombalasın*

"Taliban" hərəkatının üzvləri Əfqanıstan İslam Respublikasının 34 vilayətindən biri olan Bağlanın mərkəzi Pul-i Xumri şəhərini ələ keçirib. Qeyd olunub ki, hərəkatın yaraqlıları şəhərə daxil olub, "bayraq"larını Mərkəzi meydanda, həmçinin qubernatorun iqamətgahının qarşısında qaldırıblar. Hökumət qüvvələri məcburən geri çəkilib.

Agentlik qeyd edir ki, bu, son günlərdə radikalların əlinə keçən səkkizinci inzibati mərkəzdir. Ötən gün Ağ Evin mətbuat katibi Jen Psaki mətbuat konfransında maraqlı fikir irəli sürüb. O söyləyib ki, Əfqanıstan hökumətinin radikal "Taliban" yaraqlılarının öhdəsindən gəlmək üçün kifayət qədər silahlı qüvvəsi var. Maraqlıdır, Əfqanıstanda hazırda vəziyyətin kritik həddə çatmasının səbəbi nədir?

**BAXCP sədrinin müavini, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında Əfqanıstanda vəziyyətin kəskinləşməsinin öncədən planlı şəkildə aparılan siyasətin tərkib hissəsi olduğunu deyib.** Analitik qeyd edib ki, bu, Amerikanın region dövlətlərin təhlükəsizliyinə zərbə vurmaq üçün qurduğu oyundur: "Taliban" əslində heç kimlə danışıqlar aparmaq fikrində deyil. Çünki "Taliban" hərəkatının yaranmasında məqsəd və ideya, onları öz həmfikirləri olmayanlarla birləşməsi ehtimalını mümkün etmir. Bu insanlar uşaqlıqdan dini fanatizm ideyaları ilə



böyüyürlər. Onlar Amerika və Səudiyyənin varlı ailələri tərəfindən Pakistan xüsusi xidmət orqanı tərəfindən formalaşıblar. Bu baxımdan, "Taliban"ın tərkibində Amerika təhlükəsizlik orqanlarına işləyən böyük miqdarda insanın olması təbiidir".

**A.Qasımov bildirib ki, Amerika "Taliban"ın hazırda irəliləməsində siyasi motivlər hazırlayır:** "Amerika istəyir ki, "Taliban"ı qəddar və vəhşi kimi göstərib, Əfqanıstanı bombalasın. Hesab edirəm ki, Amerikanın gizli planları var. Düzdür, Amerika özünü Əfqanıstandan çıxmış kimi göstərsə də, əslində tamamilə ordan çıxmaq fikrində deyil. Amerika rəsmiləri qeyd edir ki, 20 il ərzində 3 trilyon dollar vəsait xərclənib, əfqan ordusu formalaşdırılıb və silahla təchiz edilib. Hətta əfqanlara təyyarələr belə verilib. İndi Əfqanıstanın özü-özünü idarə etməsi lazımdır. Amerika sadəcə Əfqanıstanda elə bir mühit yaratmaq istəyir ki, vəziyyət getdikcə daha da gərginləşsin. Ətraf ölkələr də bundan narahat olsun. Necə ki, Rusiya artıq Orta Asiya ölkələrinə 20 min qoşun yığıb. Fikrimcə, Rusiya gec-tez "Taliban"la üz-üzə gələcək. Bu, öncədən hesablanmış plandır. Rusiya narahatdır ki, "Taliban" daxilindəki qruplar arasında münaqişə yaratmaq üçün Moskvada özbək-tacik qruplarla çeçenlərin davalarını təşkil edir. Rusiya hesab edir ki, bu qarşıdurma Suriyadan Əfqanıstana gəlmiş çeçen qruplarla "Taliban"ın özbək və tacik əsilli üzvləri arasında birliyin pozulmasına və sonda münaqişəyə gətirib çıxaracaq. Bu da öz növbəsində bu qrupların sərhəd boyu rus əsgərlərinə hücumlarının qarşısını alacaq".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması



# Məişət zorakılıqlarının bütün detalları araşdırılmalıdır

*Cərimələr deyil, daha çox azadlıqdan məhrumetmə cəzalarına üstünlük verilməlidir*

Məişət zorakılığı təəssüf ki, təkcə söyülmə, döyülmə, işgəncələrlə məhdudlaşmır, ən ağır forma - qətllərlə də sonuclanır. Son günlərdə ard-arda bir neçə cinayət hadisəsi baş verib. 3 halda hədəf konkret olaraq qadınlardır. Gəncə, Şəmkir və Şabranda zorakılıq nəticəsində bir qadın dünyasını dəyişib, ikisi isə xəstəxanaya yerləşdirilib. Şəmkir rayonu ərazisində 1985-ci il təvəllüdlü Qasımova Səma Vilayət qızı odlu silahdan atəş açılması nəticəsində xəsarət alıb.

Hadisə ilə bağlı Şəmkir rayon Prokurorluğunun məlumatında bildirilib ki, rayonun Yeni Həyat kənd sakini, 1959-cu il təvəllüdlü Sahib Həsənov yaşadıqları evdə şəxsi münasibətlər zəminində oğlunun arvadı - gəlini Səma Qasımovaya ov tüfəngi ilə iki dəfə atəş açmaqla onu qəsdən öldürməyə cəhd edib. Faktla bağlı Şəmkir rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb. İkinci hadisə də dəhşətlidir. Gəncə şəhəri, Məhsəti qəsəbə sakini, 1980-ci il təvəllüdlü Ramin Rüstəmov anası, 1957-ci il təvəllüdlü Svetlana Rüstəmovaya ağır xəsarətlər yetirib. Nəticədə qadın yaşadığı evdə vəfat edib. Faktla bağlı Gəncə şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Üçüncü hadisə isə ağılları çaşdırandı. Şabran rayonunda qadın əri tərəfindən zorakılığa məruz qalıb. Hadisə rayonun Məliklər kəndi ərazisində qeydə alınıb. Kənd sakini, 1984-cü il təvəllüdlü Natavan Xalid qızı Sarxanova xəsarətlərlə Şabran rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Ona hər iki yuxarı və aşağı ətrafların, qarının sıyrılmış yaraları və göz ətrafının hematoması diaqnozu qoyulub. Qadın xəstəxanada bildirib ki, yaranan mübahisə zəminində həyat yoldaşı tərəfindən hərəkətdə olan avtomobildən yola atılıb. Faktla bağlı hazırda araşdırma aparılır. Nə qədər "Qadın cinayətlərinə son!" deyilirsə də, sonun sonu görünmür. Elə anlaşılmasın ki, yalnız qadınların müdafiəsindən söhbət gedir. Qəribə burasıdır ki, "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova mediaya açıqlamalarının birində "kişilər də zorakılığa məruz qalır", ifadəsini işlətmişdi. Və Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hesabatında da zorakılığa məruz qalan qadınlarla yanaşı, kişilərin də statistikası verilir. Əslində, burada həqiqət axtarmaq üçün çırağa, filana ehtiyac da yoxdur. Evdə zorakılıq varsa, hər iki tərəf - qadın da, kişi də bundan əziyyət çəkəcək. Lakin qadınlar zərif cinsə mənsub olduqlarından onların müdafiəsi üzərində daha çox dayanılır. Məsələn, bir neçə gün əvvəl paytaxtın Xəzər rayonunda Sevinc Məhərrəmovanın həyat yoldaşı tərəfindən qətlə yetirilməsi hadisəsi sosial şəbəkələrdə xeyli müzakirə edildi. Bir neçə qadın bu faktı əsas tutaraq Xəzər Rayon Polis İdarəsinin önündə etiraz aksiyası keçirdilər, idarə binasının giriş qapısına qırmızı boya atdılar. Hadisə ilə bağlı DİN-in də açıqlaması oldu. Açıqlamada qeyd edilirdi ki, ailə-məişət zəminində daxil olan bütün müraciətlər Daxili İşlər Nazirliyinin nəzarətinə götürülür. DİN-in mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev mətbuatın sorğusunu cavablandırarkən bunları deyib: "Ağır hadisədir, faciədir, bu hal baş verməməli idi. Qarşısının alınması üçün qətlə yetirilən qadının "ailəmdən ayrıla bilmərəm, övladlarımdan ayrı yaşaya bilmərəm", kimi israrlı istəkləri, ona təklif olunan sığınacaqdan imtinası ilə bağlı daha təsirli tədbirlər görülə bilərdi. Etiraf edək ki, onu xilas etmək üçün bütün imkanlar tam səfərbər edilmədi, daha çox ailənin, qadının, onun yaxınlarının istəkləri nəzərə alınmaqla tədbirlər hüquq çərçivəsində həyata keçirilib". E.Hacıyev bildirib ki, cari ilin mart ayında zorakılığa məruz qalan qadının şikayəti əsasında başlayan cinayət işi üzrə zəruri olan bütün tədbirlər qanunvericiliyə uyğun olaraq görülüb. Buna baxmayaraq, məhkəmə baxışı zamanı tərəflərin barışığı nəzərə alınıb: "İlk günlər ailədaxili münasibətlərin normallaşması müşahidə edilirdi. Təəssüf ki, sonradan baş verənlər - tərəflərin barışığı, valideynlərin bir-birinə güzəştsiz münasibəti ağır nəticələrə yol açdı. Bu o həqiqətin göstəricisidir ki, bu barışıqlar həmişə xoşbəxtliklə nəticələnmir". "Hadisənin təfərrüatları tərəfimizdən ətraflı təhlil olunaraq, ailə-məişət zəminində daxil olan bütün müraciətlərə daha diqqətli, daha məsuliyyətli yanaşılması üçün tərəflərin razılığı, yaxud barışığı olsa belə həmin şəxslər profilaktik qeydiyyata alınmaqla, nəzarət-profilaktik işin effektiv təşkili və gücləndirilməsi üçün tədbirlər görülür", - E.Hacıyev əlavə edib.





> "Ancaq qadınların problemini dinləmək məsələyə birtərəfli baxışdır, heç nəyə nail ola bilməyəcəyik"

**"Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova isə hesab edir ki, sosial şəbəkələrdə "günahkar" axtarmaqdansa, əməli təkliflərlə çıxış etmək məişət zorakılığına qarşı mübarizədə daha effektiv olar:**

- Ailələrlə iş aparılmalıdır. Hər iki tərəflə - həm qadın, həm də kişi. Ancaq qadınlarla iş aparmaq, ancaq qadınların problemini dinləmək məsələyə birtərəfli baxışdır və bu şəkildə biz problemi heç vaxt həll edə bilməyəcəyik. Ailədə gərginlik varsa, gərginliyi yaradan səbəb ilk növbədə müəyyənləşməlidir. Cinayətə meyillilik dərəcəsi bilinməlidir. Ailə başçılarının, həmçinin digər ailə üzvlərinin, o cümlədən uşaqlar varsa, uşaqların da psixologi durumu öyrənilməlidir. Bunlar öyrənilmədən, mövcud durum analiz edilmədən hökm vermək, tədbir görmək lazım olan nəticəyə gətirib çıxarmayacaq. Bu işlə təkcə icra hakimiyyətləri məşğul olmamalıdır. Bəlkə də icra hakimiyyətləri ümumiyyətlə, bu işdən azad edilməlidir. Xüsusi mərkəzlər fəaliyyət göstərməli, sosioloq, psixoloq, həkimlər, ailə mütəxəssisləri mərkəzlərə cəlb olunmalı, problemli ailələrlə iş aparmalıdırlar. "Məişət zorakılığı haqqında" qanun da artıq köhnəlib. Qanunun təkmilləşdirilməsinə ehtiyac var. Qanunvericilik də sərtləşdirilməlidir. Cərimələr deyil, daha çox azadlıqdan məhrumetmə cəzalarına üstünlük verilməlidir. Son zamanlar törədilmiş cinayətlərin xarakteri araşdırılmalıdır. Bilinməlidir ki, hansı xarakterli cinayətlər artıb. Yaxud, zorakılıq faktı və təhlükə mövcuddursa, məhkəmələr boşanma müraciətlərinə baxarkən bəlkə 3 ay möhlət verməməlidir? Zorakılıq qurbanları üçün sosial inteqrasiya proqramı da kifayət qədər təkmil deyil. Zorakılıqla mübarizə təkcə polisin işi deyil. Zorakılıqla mübarizə fərdi deyil, hamının problemi olmalıdır. Biz görürük ki, mühafizə orderi çox zaman effektsiz qalır. Deməli, elektron qolbaqlara üstünlük verilməlidir ki, hər hansı təhlükə olduqda, cinayətin qarşısı zamanında alınsın. Məişət zorakılıqlarının, ailə zəminində törədilən cinayətlərin qarşısının alınmasında istifadə edilə biləcək resurslar ildən-ilə genişlənir. Bunlardan maksimum faydalanmaq lazımdır.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Cəzalandırılmalıdır...



Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü, tanınmış memar Elçin Əliyev Bakıda avtobus sürücüsünün davranışını tənqid edib. O, "Facebook" səhifəsində bu barədə yazıb və tənqid etdiyi avtobus sürücüsünün görüntülərini də paylaşıb: "Xaliq Faiqoğlu" şirkətinə məxsus sərnişin avtobusunun sürücüsü Şəmsi Bədəlbəyli küçəsində sükan arxasında olarkən pəncərədən yerə salfet atıb.



## Hər sürücü yola bir zibil atsa, ətrafımız zibilxana olar

### Psixoloq: "İnsanı ən doğru tanıdan onun davranışları, danışığı, ictimai baxışları, insanlara və cəmiyyətə münasibətidir"

Ətrafı zibillədiyinə görə sürücüyə irad bildirdikdə isə kobud rəftarla qarşılaşıb. "Əcəb edirəm, istəyirəm zibili yerə atıram. Sənin nə işinə qalıb? Get öz işinlə məşğul ol", - deyə sürücü qışqırıb. Qeyd edək ki, Bakı küçələrində tez-tez avtobus sürücülərinin belə davranışları ilə qarşılaşırıq. Artıq buna "öyrəşirik" desək yanılmarıq. Hətta iş o yerə çatıb ki, sərnişinlər və digər yol hərəkəti iştirakçıları avtobus sürücülərinin səhvlərini belə deməyə qorxur. Çünki elə avtobus sürücüləri də tapılır ki, səhvi düzəltmək əvəzinə, irad bildirən şəxsi döyür. Bu da paytaxt nəqliyyatına cavabdeh qurumun belə amillərə göz yummasından irəli gəlir. Yaxud da, cavabdeh qurumun işinin öhdəsindən layiqincə gələ bilməməsi anlamını ortaya qoyur". Daşıdığı vəzifədən, hansı sosial təbəqəyə mənsubluğundan asılı olmayaraq vətəndaşların küçələri zibilləməsinə tez-tez rast gəlirik. Uşaq, böyük fərq etmir. Sərnişin avtobusunda, metro vaqonlarında valideyninin yanında əyləşmiş uşaqların yerə konfet kağızı, salfet, peçenye atdığını görmüşük. Valideyn uşağa irad bildirmək bir yana, özünə əziyyət verib, zibili yerdən götürməyib də. E.Əliyevin paylaşdığı xəbərdə isə söhbət konkret vəzifə sahibindən - ictimai nəqliyyat sürücüsündən gedir. Sürücüsü küçəyə zibil atan avtobusun sərnişinlərini bundan sonra necə qınayasan? Nəzərə alsaq ki, demək olar bütün avtobuslarda "xidmətdən, sürücüdən narazılığınız varsa, .... nömrələrə zəng edin" yazılmış elan lövhələri vurulur. Belə çıxır ki, sürücülər bu elanları vecinə almır, həmçinin müdiriyyətin onlara "gözün üstdə qaşın var" deməyəcəyinə də arxayındırlar.

**Məsələ ilə bağlı fikirlərini "Şərq"lə bölüşən psixoloq Fərqanə Mehmanqızı qeyd etdi ki, sürücünün bu davranışı ilk növbədə qanun pozuntusudur:**

- Birincisi, bu halda sürücü "Yol hərəkəti haqqında" qanunun maddələrini pozub. Qanuna görə nəqliyyat vasitəsi hərəkətdə ikən qapını açmaq, nəqliyyat vasitəsinin, istər şəxsi avtomobil olsun, istərsə də ictimai nəqliyyat, pəncərəsindən küçəyə zibil, hər hansı əşya atmaq qadağandır. Qanun pozuntusu bununla bitmir. "Sənaye və məişət tullantıları haqqında" qanuna görə ətraf mühitin çirkləndirilməsinə görə vətəndaş məsuliyyət daşıyır və bu maddənin icrasına DİN nəzarət edir. Ona görə də sürücü qanunauyğun cəzalanmalıdır. Şəxsin hansı ictimai nəqliyyat vasitəsinin sürücüsü olduğu bəllidir. Sürücünün çalışdığı şirkət də cavabdehdir.

**Psixoloq bildirdi ki, qanunla cəzalanmanın vacib olduğu qədər ictimai qınaq da böyük əhmiyyət kəsb edir:**

- Zahiri görkəm insan haqqında ilkin təsəvvür yaradır. Və bu təsəvvür yanlış ola bilər. İnsanı ən doğru tanıdan onun davranışları, danışığı, ictimai baxışları, insanlara və cəmiyyətə münasibətidir. İnsan evində fərddir, cəmiyyət içində isə ictimai varlıqdır. Niyə deyirlər ki, ictimai yerlərdə "bu qadağandır", "filan iş olmaz" və sair. Çünki biz bir insan və vətəndaş olaraq həm də cəmiyyətə bağlıyıq. Cəmiyyətin bir üzvüyük. Hər kəs o sürücü kimi küçəyə, yola bir zibil atsa, ətrafımız hansı halda görünəcək? Bəs zibil qutuları niyə qoyulub, zibil yeşikləri nə üçündür? Hər bir insan hərəkətinə görə cavabdehlik daşımalıdır, o cümlədən də ictimai nəqliyyatda çalışanlar. Belə məsələlərdə ən doğru üsul ictimai qınaqdır. İctimai qınaq mütləq lazımdır. Biz toplum olaraq üzləşdiyimiz neqativ hallara qarşı ictimai qınaq bildirməyi öyrənməliyik və tətbiq etməliyik. Bir dəfə təsir etməz, iki dəfə təsir etməz, üçüncü dəfə təsir edər. Həm də insan göründə ki, ictimai qınaq kütləvi xarakterdədir, yəni bir nəfər yox, bir neçə nəfər etiraz bildirir, mütləq özünü yığışdıracaq. Həmin sürücüyə bir nəfər etiraz edib, amma bir neçə nəfər onun mövqeyini müdafiə etsəydi, sürücü həmin şəxsə kobud cavab verməyə ürək etməzdi.

Həmin sürücüyə bir nəfər etiraz edib, amma bir neçə nəfər onun mövqeyini müdafiə etsəydi, sürücü həmin şəxsə kobud cavab verməyə ürək etməzdi

**Məlahət Rzayeva**

# 2,3 milyard ilkin vəsaitdir

*Azad olunmuş torpaqlarımızın dirçəlməsinə 2030-cu ilə qədər təqribən 60 milyarda yaxın vəsait lazım olacaq*



Ötən gün Qarabağın bərpasına xərclənən vəsaitin məbləği açıqlanıb. Belə ki, 2021-ci il üçün Azərbaycanın dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan 2,835 mlrd. manat vəsaitin cari ilin 6 ayı ərzində 2,612 mlrd. manatı layihələr üzrə bölüşdürülüb. Digər məbləğ isə ehtiyatda saxlanılıb.

Nazirliyin məlumatında qeyd olunur ki, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası üçün 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş 2,2 mlrd. manatın ilin ilk yarısında 16,9 faizi artıq istifadə olunub.

**Azərbaycanda investisiya layihələrinə ayrılan vəsaitin şəffaflığı ilə bağlı kifayət qədər ciddi sualların olduğuna diqqət çəkən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, çox güman ki, bundan sonra da olacaq. Ekspert qeyd edib ki, aidiyyəti qurumlar hesabatlılıqla bağlı problemlər yaşayırlar:**

"Onların hesabatlılığı çox aşağı səviyyədədir. Ancaq işğaldan azad olunmuş torpaqlarımızın bərpası ilə bağlı ayrılan vəsaitin doğru-düzgün xərclənməsinə dair ən azından bir ümid var. İnanırıq ki, bu sahədə xərclənən vəsaitin şəffaflığı xeyli dərəcədə yüksək olacaq. Ona görə də cəmiyyət əlaqədar qurumlardan daha çox məlumat və bilgiləndirmə gözləyir. Və əlbəttə ki, onlar da bu gözləntilərə cavab verməlidir. Qeyd edim ki, Azərbaycanda həmişə ilin ikinci yarısında büdcədən ayrılan vəsaitlər daha çox xərclənməyə başlayır. İndi də çox güman ki, elə olacaq. Artıq vəsaitlər ayrılıb və ilin sonuna bu vəsaitlərin xərclənməsi daha sürətlə gedəcək. Təəssüf ki, belə bir pis ənənə Azərbaycanda formalaşıb və illərdir ki, davam edir. Çünki qanunvericiliyə görə, ayrılmış vəsait bu il ərzində xərclənməsə yenidən büdcəyə qaytarılmalıdır. Ona görə də əlaqədar qurumlar, dövlət orqanları ayrılan vəsaiti həmin ildə xərcləməyə çalışırlar. Bu da çox zaman ilin ikinci yarısına təsadüf edir".

**N.Cəfərli vurğulayıb ki, işğaldan azad olunmuş torpaqlarımıza ilkin olaraq bu il 2,3 milyarddan bir az çox vəsait ayrılıb:** "Amma bu, ilkin vəsaitdir. Təbii ki, hər il bu vəsait artacaq və məcburi şəkildə bunu artırmalıyıq. Çünki Qarabağ işğal zamanı ermənilər tərəfindən tamamilə dağıdılıb və bilirik ki, bura böyük bir ərazidir. Kommunikasiyaların, logistikanın bərpası, minalardan təmizlənmə əməliyyatının genişləndirilməsi üçün burada əlavə vəsaitlərə ehtiyac yaranacaq. İlkin hesablamalara görə, 2030-cu ilə qədər təqribən 50-60 milyard manata yaxın, yəni təxminən dolların indiki məzənnəsi ilə 25-30 milyard dollara yaxın vəsait lazım olacaq. 2022-ci ildən 2030-cu ilədək isə hətta bundan artıq da vəsaitə ehtiyacın yaranması ehtimalı kifayət qədər böyükdür. Bu ayrılacaq böyük vəsaitlərin daha şəffaf və hesabatlı xərclənməsi əsas şərtlərdən biridir".

**Aynurə Pənahqızı**

# "Patı" mövzusunda 1 dəqiqəlik süjet belə vermirlər

## Keçmiş polis rəisi televiziyaları hədəf aldı



Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev ARB televiziyasının efirində narkotik vasitələrin dövriyyəsiylə bağlı maraqlı faktlar açıqlayıb.

O, bir neçə gözəllik salonunda qadınlara arıqlama dərmanı adı altında narkotik maddə metamfetamin, "patı"nın satıldığını bildirib. Daxili İşlər Nazirliyinə bir neçə belə fakt daxil olub və faktlar araşdırılıb. Həmin əməlləri törədən şəxslər barəsində tədbir görülüb. Bununla belə DİN rəsmisi deyib ki, gözəllik salonlarına gedib arıqlama dərmanı adıyla müxtəlif həblər əldə edən şəxslər diqqətli olmalıdırlar. Çünki salonlarda həmin narkotik vasitələri qadınlara verən şəxslər onun narkotik tərkibli maddə olduğu barədə məlumat vermirlər. Nəticədə bir-iki dəfə istifadədən sonra həmin qadınlar "patı"nın aludəçisinə çevrilirlər.

**Keçmiş polis rəisi Mahmud Hacıyev "Patı" deyilən narkotik vasitənin kütləviləşməsi barədə "Şərq"ə danışıb:** "Cinayətkarlıq hər yerə çatır. Ümumiyyətlə, insan faktoru olan yerdə belə neqativ hallar istisna deyil. Polis orqanları bu işlə ciddi məşğul olur, uğurlu əməliyyatlar keçirirlər".

**M.Hacıyev, həmçinin medianın fəaliyyətindən də söz açıb:** "Qəzet və saytlar kifayət qədər maarifləndirici materiallar təqdim edirlər. Amma məsələ ondan ibarətdir ki, qadınlar mətbuata üstünlük vermir, daha çox televiziyaya baxırlar. Kanallarımızın susması, bu barədə bircə dəqiqəlik videosüjet təqdim etməməsi isə təəssüfləndiricidir. Sanki "qurbağa gölünə daş atmısan". Nə qədər Nadirdən, Röyadan, Aygün Kazımovanın donunu uzatmasından danışmaq olar?! Qadınlar maariflənməli, bu cür maddələrin asılılıq yaratdığını bilməlidirlər".

**Kənan**

# Qadınlara qarşı zorakılıq artır

## Heç kim belə hadisələrə nəzarət etmək istəmir



**Bakıda 24 yaşlı qız zorlanıb. Hadisə paytaxtın Binəqədi rayonunda qeydə alınıb.**

Rayon sakini, 1997-ci il təvəllüdlü M.C (ad şərtidir) polisə müraciət edərək, Fərid adlı qonşusu tərəfindən zorlandığını bildirib. Daxil olan şikayət əsasında araşdırmalar aparılır.

**Hadisəni "Şərq"ə dəyərləndirən "Müasir Azərbaycan Qadını İctimai Birliyi"nin sədri Kəmalə Muradlı bildirib ki, son illər ölkəmizdə qadınlara qarşı zorakılıq artmaqda davam edir.** Onun sözlərinə görə, belə halların qarşısını almaq üçün nə qədər qurumlar, təşkilatlar yaradılır, qanunlar qəbul edilir. Amma bütün bunlar kağız üzərində qalır: "Heç kim belə hadisələrə nəzarət etmək istəmir. Düşünürəm ki, monitorinqlər keçirmək lazımdır. Qanunların yerlərdə necə icra olunduğuna nəzarət edilməlidir.

Təbii ki, kişilərin zorakılığına qarşıyam. İnsanlara zorakılıq tətbiq etmək olmaz. Nə kişiyə, nə də qadına vəhşilik göstərmək düzgün deyil. Bunların qarşısını almaq üçün dövlətimiz qanunlar qəbul edib.

Lakin heç kəs bu qanunlara nəzarət etmir. Maarifləndirmə yolu ilə insanları düz yola çəkməliyik".

**Yeganə Bayramova**

# Qarabağa turizm marşrutlarından biri "Əli və Nino" adlanacaq

## Bu, Azərbaycanın təqdimatı baxımından olduqca vacibdir



**Qarabağla bağlı bir neçə tematik marşrut üzərində çalışırıq. Bunu Azərbaycan Turizm Bürosunun Turizm məhsulunun inkişafı şöbəsinin direktoru Şərifə Həsənova deyib.**

Onun sözlərinə görə, bunlardan biri Qafqaz Albaniyası ilə bağlıdır: "Bu marşrut Azərbaycanın 3 əsas koridorunu, Bakı-Şəki-Zaqatala, Gəncə-Qazax və əsas da Qarabağı əhatə edir. Bildiyiniz kimi Qarabağda Qafqaz Albaniyası ilə bağlı zəngin irs var. Bura məbədlər, kilsələr, həmçinin adətlər və s. daxildir. Alban mədəniyyəti islamaqədərki dövrü əhatə edən böyük bir mədəniyyətdir. Layihə artıq tamamlanmaq üzrədir. Bunu Qafqaz Albaniyasını öyrənmiş alimlərlə birgə hazırlayırıq. Qısa zamanda ictimaiyyətə təqdim edəcəyik". Ş.Həsənova onu da qeyd edib ki, Qarabağı əhatə edən digər bir turizm marşrutu isə "Əli və Nino" olacaq.

**Milli Məclisin deputatı Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib ki, Qarabağ turizm potensialı baxımından seçilən bölgələrdən biridir. Millət vəkili qeyd edib ki, Qarabağda həm turizm marşrutlarının yaradılması, həm də işğaldan azad olunmuş ərazilərimizdə yeni turizm mərkəzlərinin formalaşdırılması nəzərdə tutulub:** "Bu günləri vacib məqamlardan biri Şuşa, Kəlbəcər, Ağdam və s. işğaldan azad olunmuş digər rayon və şəhərlərimizdə daxili turizmin inkişaf etdirilməsinə nail olmaqdır. Turizm marşrutlarından birinin "Əli və Nino" adlandırılması isə olduqca mühümdür. Çünki Əli və Ninonun tanınmasını nəzərə alsaq, bu, Azərbaycanın təqdimatı baxımından olduqca vacibdir. Bu baxımdan marşruta əcnəbi turistlərin cəlb edilməsi üçün yeni imkanlar yaradılacaq. Ümumiyyətlə, belə marşrutlar bütövlükdə bölgənin inkişafı və turizm potensialının reallaşması baxımından vacibdir".

**Aynurə Pənahqızı**

# "Dövlət öz yükünü azaltmalıdır"

## *Kamran Əsədov: "Nə qədər çox özəl məktəb olarsa müəllimlərin işlə təmin olunmasına ciddi təsir göstərəcək"*



Təhsil naziri Emin Əmrullayev müəllimlər üçün vakansiyaların gizlədilməsi barədə vaxtaşırı sosial şəbəkədə yayılan söhbətləri şərh edib. O, vətəndaşları belə hallarla bağlı nazirliyi məlumatlandırmağa çağırıb. "Təhsil Nazirliyi vakansiyaları hər zaman göstərir və bu, çap ediləcək. Əgər düşünürsünüz ki, kimsə hansısa vakansiyalarla bağlı məlumatları gizlədir, onda həmin məlumatları bizə göndərə bilərsiniz".

E.Əmrullayev bildirib ki, vakant yerlərin sayını hər il artırmaq mümkündür:

"Vakansiyalar fənlər üzrə də fərqlənə bilər. Əvvəllər birinci sinfə şagird qəbulu çox olsa da, bu gün bu göstərici aşağı düşür. Ona görə də ola bilsin ki, növbəti illərdə ibtidai siniflər üzrə vakansiya sayı aşağı düşə bilər".

Nazirin sözlərinə görə, müəllim olmaq istəyən namizədlərin heç də hamısı işsiz deyil. Bununla belə, hamının Bakıda işləmək arzusunu da yerinə yetirmək imkansızdır: "Bizi də başa düşmək lazımdır ki, hamını Bakıda işə götürə bilmərik. Kənd məktəblərinin sayı kifayət qədərdir və həmin yerlərə də müəllim göndərmək lazımdır".

**Mövzu barədə "Şərq"ə açıqlama verən tarix elmi üzrə fəlsəfə doktoru, təhsil eksperti Kamran Əsədov vurğulayıb ki, ən çox müəllim sıxlığı Bakıdakı orta ümumtəhsil məktəblərindədir:**

"Bakı şəhərində 320 orta məktəb var. Ölkəmizdəki 1.6 milyon şagirdin 440 mini paytaxt Bakıdadır. Bölgədə hər 12 şagirdə 1 müəllim düşürsə, Bakı şəhərində 9, bəzən 8 şagirdə 1 müəllim düşür. Bu, müsbət tendensiyadır. Lakin etiraf edək ki, bu gün Azərbaycanda pedaqoji təhsil ixtisasını kifayət qədər şəxs bitirir, ancaq onların işlə təminatında ciddi problem var.

Bu il müəllimlərin işə qəbul imtahanında iştirak edən 60 min insandan yalnız 8 mini vakant yerlərə qəbul ola biləcək. 50 mindən çox ali təhsilli şəxs isə işsiz qalacaq".

*Ekspertin fikrincə, müəllimlərin işə qəbulu ilə bağlı vakant yer probleminin aradan qaldırılması üçün özəl lisey və gimnaziyaların fəaliyyətinə daha geniş yer verməliyik:*

"Yəni dövlət öz yükünü azaltmalıdır. Məsələn, təkcə İstanbulda 7 min məktəb var, onun 3500-ü özəl, 3500-ü isə dövlət məktəbidir. Yəni burada bərabərlik prinsipi var. Dövlət yükünü azaldır, əvəzində isə məktəblərin özünün fəaliyyət göstərməsinə şərait yaradır. Fikrimcə, Azərbaycan da bu məsələdə mütərəqqi addımı atmalıdır. Yəni dövlət məktəblərimizin yükündən azad olmalıyıq, bu, dövlət büdcəsinə də kifayət qədər köməkdir. Nə qədər çox özəl məktəb olarsa, müəllimlərin işlə təmin olunmasına, təhsilin keyfiyyətinin artmasına ciddi təsir göstərəcək".

**Yeganə Bayramova**

# Qarabağda "dark turizm" də olacaq



## Dünyanın bir çox ölkəsində bu təcrübə var

"Bu turizm ölkə ideologiyası üçün çox əhəmiyyətlidir. Burda iqtisadi, siyasi, tarixi əhəmiyyətdən ən öncül ideologiyadır"

Şuşada və Daşaltı kəndində turizm sahəsində görüləcək işlərə dair konsepsiya hazırlanır. Bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib.

O bildirib ki, yaxın müddətdə bu barədə ictimaiyyətə geniş məlumat verəcəyik. Sədr diqqətə çatdırıb ki, Qarabağda eyni zamanda ”dark turizm” də olacaq. Bu turizm növü Azərbaycan üçün nə dərəcədə önəmlidir?

**”Dark” turizm növünün ölkə ideologiyası üçün çox əhəmiyyətli olduğunu bildirən iqtisadçı-ekspert Rauf Qarayev ”Şərq”ə açıqlamasında vurğulayıb ki, dünyanın bir çox ölkəsində bu təcrübə var. Onun sözlərinə görə, bu, həm xarici turistlərin marağını cəlb edir, həm də gələcək nəsillər üçün bir xatırlatma məqsədi daşıyır:** ”Dark” ingilis dilindən tərcümədə qaranlıq, qara deməkdir. Burada əsas məqsəd ölkənin tarixi əhəmiyyəti, yəni baş vermiş faciələrin həm gələcək nəsillərə, həm də turistlərə çatdırılmasıdır. Məcazi mənada turist müəyyən dağıntı sahəsinə gəldikdə, o, özünü həmin qaranlıq hadisənin şahidi kimi hiss edir. Yəni ”qaranlıq turist”ə çevrilir. Nümunə olaraq, Romada olan Kolizeyi göstərə bilərik. Burada bilirsiniz ki, qladiator döyüşləri keçirilirdi. Bu məkana gələn insanda ilk olaraq döyüşlər barədə təəssüratlar yaranır və həmin şəxslər sonradan onun tarixi ilə bağlı maraqlanmağa başlayırlar. Həmçinin, İngiltərədə London Tauer, 1937-ci ildə ABŞ-ın Nyu Cersi ətrafında baş verən gəmi aşması ilə bağlı yer, Krımın Sevastopol şəhərində vətəndaş müharibəsi ilə bağlı abidə kompleksi və s. kimi məkanları misal gətirə bilərik. Bilirsiniz ki, bu günləri 1986-cı ildə baş vermiş Çernobl qəzası ilə bağlı turistlər həmin əraziyə aparılırlar və onlar burda hadisənin baş verməsi ilə bağlı qeydlər edirlər”.

**Ekspert diqqətə çatdırıb ki, bu turizm həm də genosidin baş verdiyi hadisəni də özündə tərənnüm edir:** ”Qeyd edim ki, Yaponiyaya atılan atom bombası ilə bağlı ölən insanlar üçün Xirosima şəhərinin ”Memorial parkı” salınıb, Kambocada isə ”Tuolslenq”. Azərbaycanda belə bir nümunə hazırda var. Misal olaraq, Qubada baş verən genosid üçün abidə kompleksi. Qarabağda yaradılacaq kompleks sırf şəhərin və şəhər ətrafında qəbiristanlıqların viranə qoyulması ilə bağlı olacaq. Türkiyənin özündə Çanaqqala şəhəri özü də qara turizmi tərənnüm edir. Ümumiyyətlə, bu turizm ölkə ideologiyası üçün çox əhəmiyyətlidir. Burda iqtisadi, siyasi, tarixi əhəmiyyətdən ən öncül ideologiyadır. Azərbaycan vətəndaşı fərq etmir gəncdir, uşaqdır, düşmənini tanımalıdır ki, sonra onunla gələcəkdə birgə yaşasa belə, daim ehtiyatlı olsun. Bizə bunu unutdurmağa çalışanlar görünür ki, bizə qarşı düşmən mövqedə olublar. Hadisələrin baş verməsi isə unutqanlığımız, humanistliyimizlə əlaqədardır. Tariximizi unutmamalı, keçmişimizdən dərs çıxarmalıyıq. Ona görə də ”dark turizm”in yaradılmasını çox təqdirəlayiq hesab edirəm”.

**Aynurə Pənahqızı**



## Pediatr açıqladı

### Uşaqlarda “Delta”nın əlamətlərindən biri yüksək hərarət və səpkilərdir

**”Delta” ştammı uşaqlar arasında daha geniş yayılır. Bu zaman onlarda səpkilər müşahidə edilir.**

Bunu Trend-ə açıqlamasında pediatr-infeksionist Aytən Ziyadova deyib. O bildirib ki, belə hallar valideynləri çaşdıra bilər və davamlı qızdırma varsa, vaxt itirmədən həkimə müraciət edilməlidir: ”Bu zaman uşağın koronavirus xəstəsi ilə kontaktda olub-olmamasını müəyyənləşdirməyimiz olduqca əhəmiyyətlidir. Artıq Avropanın bir sıra ölkələrində 12-18 yaşarası uşaq və yeniyetmələrin vaksinasiyasına başlanılıb. Düşünürəm ki, böyüklərin peyvəndlənməsi bitdikdən sonra bizdə də uşaqların vaksinasiyasına böyük yer veriləcək. Çünki uşaqların sağlamlığı bizim üçün çox önəmlidir. Tədqiqatlar göstərir ki, koronavirusa yoluxanlar arasında yeni doğulan körpələrdən qocalara qədər bütün yaş qrupunda insanlar var. Hətta uşaqlar arasında xəstəlik reanimasion vəziyyətə qədər yüksələ bilər”. Mütəxəssis son dövrlərdə ölkədə koronavirusa yoluxma sayının artdığına da diqqət çəkib: ”Bu əsasən toy mərasimlərinin kütləvi şəkildə keçirilməsi və bu məclislərdə insanların bəzən qaydalara riayət etməməsindən irəli gəlir. Virusla mübarizədə müəyyən tədbirlərin doğrudüzgün aparılması ilə yanaşı peyvəndlənmənin də böyük önəmi var. Bu baxımdan vaksinasiya prosesi gecikdirilməməlidir. ABŞ-ın JAMA tibb jurnalında yayımlanan elmi məqalədə də qeyd olunub ki, vaksin olunmuş şəxs yenidən yoluxanda ağciyərlərdə zədələnmə daha az olur və xəstə daha tez sağalır. Lakin peyvənd olunmayan şəxslər koronavirusu ağır şəkildə keçirir və ölüm riski daha yüksək olur. Buna görə, insanlara səslənirik ki, özlərinin və yaxınlarının həyatlarını riskə atmasınlar, vaxtında peyvənd vurdursunlar. Çünki vaksin vurdurduqdan 43 gün sonra immunitet formalaşır. Bu baxımdan vaxt çox önəmlidir. Bir şəxsin sağlamlığı bütün cəmiyyətin sağlamlığı deməkdir. Bu baxımdan insanlara özlərini qorumalarını tövsiyə edirik. Özümüzü qorusaq, cəmiyyətimizi də qoruya bilərik. Bunun üçün də vaxt itirmədən vaksin vurdurmaq lazımdır.”

# Aspirinin yan təsiri vaksindən daha çoxdur

## Amma onu rahatlıqla qəbul edirik

Tarix boyunca periodik olaraq müxtəlif dövrlərdə infeksion xəstəliklər yayılıb. Adətən belə xəstəliklər kəskinləşdikdə epidemiya, pandemiya formasını alıb. Pandemiya həddinə çatan infeksion xəstəliklərin qarşısını isə əsasən peyvəndlərlə almaq mümkün olub.

Bunu “Trend”ə Azərbaycan Tibb Universitetinin (ATU) Klinik Diaqnostik Laboratoriyasının şöbə müdiri, tibbi mikrobiologiya və immunologiya kafedrasının baş müəllimi Yavər Hacısoy bildirib.

Mikrobioloq alim bildirir ki, bütün infeksiyaların profilaktikasında peyvəndləşmə hər zaman bir nömrəli rol oynayıb: ”Koronavirusa qarşı peyvəndləşmənin əhalidə bu qədər qorxu yaratması isə sadəcə təəssüf doğrur. Axı bütün dünyada, eləcə də Azərbaycanda hər bir insan anadan olan kimi mütləq şəkildə bəzi xəstəliklərdən peyvəndlənir. Bu proses yetkinlik yaşına qədər davam edir. Amma bu zaman ”peyvəndlərdən qorxuram”, ”bu vaksin məni öldürəcək” kimi yanaşmalar görmürük. Koronavirus pandemiyası dövründə bəzi insanların ortaya atdığı əsassız fikirlər insanların, cəmiyyətin beyni qarışdırır”.



Y. Hacısoy qeyd edir ki, vaksinlərin fəsadları, yan təsiri ilə bağlı qorxular əsassızdır. Çünki müasir dövrdə yan təsiri olmayan hansısa preparat yoxdur: ”Gündəlik həyatda demək olar hər gün müxtəlif tərkibli ağrıkəsicilər, təzyiq dərmanları, müxtəlif dərmanlar qəbul edən insanlar kifayət qədərdir. İstənilən dərmanın təlimatını oxuduqda, onun kifayət qədər yan təsiri olduğunu görmək olar. Amma insanlar heç buna fikir vermirlər. Bir həkim yoldaşımızın da qeyd etdiyi kimi, vaksinin yan təsiri aspirinə nisbətən daha azdır. Halbuki indiki dövrdə bir çox insan asanlıqla bu dərmanı içsə də, vaksinləşməyə tərəddüd edir”.

Həkim bu günə qədər vurduğumuz ənənəvi vaksinlərin də bəzən kimlərəsə yan təsiri olduğunu xatırladır: ”Belə faktlar elmi məqalələr, araşdırmalarda da öz əksini tapıb. Lakin belə halların statistikası vaksinləşmənin verdiyi faydanın yanında çox cüzidir. Odur ki, nəticə olaraq peyvənd vurdurmağın mütləq olduğunu deyə bilərik”.

**Y.Hacısoy vaksinlərin allergiya vermə ehtimalını təbii hal sayır. Çünki istənilən antibiotikin kiçik dozası bəzi orqanizmlərdə allergik hal yarada bilər. Vaksin isə mikrobun öldürülmüş bir hissəsi olduğuna görə, bədənin ona da allergiya verməsi ola bilər:** ”Təbii ki, bu fərdi xarakter daşıyır. Vaksinin kimdə allergiya verə biləcəyini əvvəlcədən təyin edən analiz yoxdur. Ona görə də vaksinasiya aparılan bütün məntəqələrdə gözləmə otaqları, şok otaqları yaradılıb. Peyvənd preparatının kiməsə yan təsiri olacaqsa ilk 30 dəqiqə ərzində ola biləcəyi ehtimalını nəzərə alaraq, peyvənd olunanlar bu müddətdə gözlədilməlidir”.

# Firon Xufunun "Günəş gəmisi" tərpəndi



Təqribən 4600 il yaşı olan Qədim Misir fironu Xufunun "Günəş gəmisi" ötən il təntənəli açılışı keçirilmiş Böyük Misir Muzeyinə gətirilib.

## *Gəmi Böyük Misir Muzeyinə köçürülüb*

Azərtac xəbər verir ki, bu barədə Misirin Turizm və Qədim Abidələr Nazirliyi məlumat yayıb.

1954-cü ildə kəşf edilən firon Xufunun gəmisi Qədim Misir inanclarına görə onun mumiyasının olduğu yerdə saxlanılırdı. Firon ölümdən sonrakı həyatında bu gəmi ilə səyahət edəcəyinə inanırdı. Xufunun türbəsinin yerləşdiyi böyük Xeops ehramından Giza yolu ilə Böyük Misir Muzeyinə transfer edilən 42 metr uzunluğunda və 20 ton ağırlığında olan, həmçinin qızıl suyu ilə işlənmiş qara örtüyə bürünən gəmi Qahirə sakinləri və turistlərin böyük marağına səbəb olub. Firon Xufunun gəmisi Belçikadan gətirilmiş və uzaqdan komanda ilə idarə olunan xüsusi yük konteyneri vasitəsilə daşınıb və 10 saatdan sonra muzeyə çatdırılıb.

Ötən ilin aprelində Misir Prezidenti Əbdülfəttah əl-Sisinin iştirakı ilə açılışı keçirilən Böyük Misir Muzeyi Qədim Misirin 22 fironunun mumiyasını qəbul etmişdi.

# 80 min ton pomidor qurudulacaq

Avropa ölkələri və ABŞ-dan sifariş yağır

*(Əvvəli səh: 16-da)*



**Pomidorun toplanması və qurudulması əməliyyatlarında 2 minə yaxın adamın çalışdığını ifadə edən Müzəffər İşıklı, bölgə iqtisadiyyatına əhəmiyyətli qatqı verdiklərini söyləyir. O, əlavə olaraq bunları söyləyib:**

”Avropa ölkələri başda olmaqla bir çox ölkəyə qurudulmuş pomidorları göndəririk. Məhsullar hər sahədə istifadə edilir. Çünki təbii mühitdə yetişdirilən təzə pomidorlar qurudulduqdan sonra da ləzzəti, tamı yerində qalır. Bu səbəblə böyük tələb var. Bizlər də bu tələbi qarşılayırıq. Sentyabr ayına qədər 80 min tona yaxın pomidoru qurudaraq ixrac etməyi hədəfləyirik”.

**Elan**

Bakı şəhəri, 94 saylı tam orta məktəb tərəfindən Levitskaya Səbinə Bəxtiyarovnaya 2015-ci ildə verilmiş 9-cu sinfi bitirməsi haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Malikanəsini 8 milyona satır



**80-ci illərin məşhur aktrisası Bruk Şilds Sakit okeanı sahilindəki malikanəsini satışa çıxarıb.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, 56 yaşlı aktrisanın Kaliforniyadakı villasının satış qiyməti 8 milyon 195 min dollardır. Üç mərtəbəli evdə 5 yataq və 6 hamam otağı var. Şilds bu villanı 10 il əvvəl tennisçi Andre Aqassi ilə evli olarkən 3,3 milyon dollara alıb.

*Qeyd edək ki, bir neçə il ərzində kirayəyə verilən malikanədə aktyor Ben Afflek və Cennifer Qarner də yaşayıb.*

# Məşhur aktrisada skleroz aşkarlandı



**Məşhur aktrisa Kristina Epplgeytə dağınıq skleroz diaqnozu qoyulub.**

Bu barədə sənətçi özü məlumat yayıb.

”Salam, dostlar. Bir neçə ay əvvəl mənə dağınıq skleroz diaqnozu qoyulub. Qəribə bir səyahət idi. Amma bu xəstəliyi olan insanlar mənə çox dəstək oldu. Çətin bir səyahət idi. Ancaq hamımızın bildiyi kimi yol davam edir. Hansısa axmaq onu əngəlləmədiyi müddətcə” deyə, o tvitter hesabında yazıb.

*Qeyd edək ki, aktrisa 2008-ci ildə xərçəngdən müalicə alıb. O, 2017-ci ildə xəstəliyi səbəbindən yumurtalıqlarını aldırmalı olmuşdu. 2013-cü ildə ana olan Kristinanın Seydi adlı bir qızı var.*

# "Kabinetim" ilə yeniliklərdən ilk sən xəbərdar ol!

*Azercell-in unikal mobil tətbiqinin yenilənmiş versiyası artıq bütün platformalarda mövcuddur*




Abunəçilərə öz nömrəsinə tam nəzarət etmək, balansı artırmaq, tarif və internet paketlərini sifariş edib dəyişdirmək, tətbiqlərə qoşulmaq imkanı verən Azercell-in "Kabinetim" mobil əlavəsinin daha da təkmilləşdirilmiş versiyası artıq istifadə üçün mümkündür.

”Kabinetim”in yeni versiyasında təqdim edilən ən son təklifləri nəzərdən keçirmək üçün istifadəçilərin heç bir bölməyə keçid etməsinə ehtiyac yoxdur. Belə məlumatların ”Kabinetim” hesabının ana səhifəsində əks olunması abunəçilərə xüsusi endirim və təkliflərdən dərhal yararlanmaq imkanını yaradır. Tətbiqin yeni versiyasında, həmçinin, ”push” bildirişlərlə bağlı istifadəçi təcrübəsi təkmilləşdirilib. Bununla da abunəçilər hətta tətbiq açıq olmasa belə, təqdim olunan yeniliklər, kampaniyalar və digər məlumatlara ani giriş imkanı qazanmış olurlar. Abunəçilərin işini həddsiz dərəcədə asanlaşdıran ”Kabinetim” həm iOS, həm də Android əməliyyat sistemlərində çalışır.

Tətbiqi abunə haqqı olmadan App Store, PlayStore və Huawei AppGallery-dən pulsuz yükləmək mümkündür. ”Kabinetim” avtomatik yenilənmədiyi təqdirdə, yükləmə üçün bit.ly/Kabinetim keçidindən istifadə etmək olar. Həmçinin *110# kodunu yığmaqla da, tətbiqi yükləmək üçün birbaşa keçid linki əldə etmək mümkündür. ”Kabinetim”lə Azersell-in IVI, Bookmate, NNTV, SberZvuk və BluTV tətbiqlərinə abunə olmaq, həmçinin onları dostlarınla paylaşıb bonus balans qazanmaq mümkündür. Qeyd edək ki, ”Kabinetim” tətbiqini yalnız smartfon deyil, həm də rahatlıqla veb platformada işlətmək mümkündür. Proqramdan istifadə zamanı meqabaytlar xərclənmir. Tətbiqin funksiyalarından faydalanmaq üçün sadəcə Azercell nömrəsi qeydiyyatdan keçirilməlidir. Azercell şirkəti abunəçilərinə ən yaxşı rəqəmsal təcrübəni bəxş etmək məqsədilə ”Kabinetim” tətbiqini daim inkişaf etdirəcək.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və “**Azərbaycan**” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, “**Azərbaycan**” nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1465

# 80 min ton pomidor qurudulacaq

Avropa ölkələri və ABŞ-dan sifariş yağır



**Diyarbakır və Şanlıurfada bu il minlərlə hektar əraziyə əkilmiş pomidorlar böyük bir diqqətlə toplanıb qurudulmağa başlanıb.**

Qurudulan orqanik pomidorlar, qablaşdırıldıqdan sonra ixrac edilir. Pomidor istehsalçısı Müzəffər İşıklı, yüzlərlə hektar sahədə pomidor yetişdirib. İşıklı, işçilərlə birlikdə yığdıqları pomidorları sərərək qurudurlar. Əldə edilən quru pomidorlar spagetti və pizzalarda sous olaraq istifadə edilmək üçün başda ABŞ, Almaniya, Fransa və İtaliya olmaqla bir çox ölkəyə ixrac edilir.

*(Davamı səh: 15-də)*

# Baba dəhşət saçdı!

Öz adını daşıyan nəvəsini öldürdü



**Afyonkarahisarın Hocalar qəsəbəsində Murad Özata (84), öz adını daşıyan nəvəsi Murad Özatanı (25) ov tüfəngiylə başından vuraraq öldürüb.**

Hadisə bazar ertəsi günü saat 22.00 radələrində Akçadere kəndində baş verib. Murad Özata ilə eyni adı daşıyan nəvəsi arasında, iddiaya görə ərazi anlaşılmazlığı səbəbiylə mübahisə düşüb. Mübahisə davaya çevrilib və Murad Özata ov tüfəngiylə nəvəsini başına atəş açıb. Ünvana gələn sağlamlıq qrupları, Özatanın həyatını itirdiyini təyin ediblər. Baba Murad Özata isə jandarma tərəfindən həbs olunub. Evli və 1 uşaq atası olan Murad Özatanın cəsədi prokurorun araşdırmasından sonra xəstəxananın meyitxanasına aparılıb.

# Okeanlarda 1,6 milyard maska üzür

Bunlar canlılar üçün ciddi sağlamlıq riski yaradır



**Son zamanlar Türkiyə də daxil olmaqla dünyanın bir çox yerində baş verən sel və yanğın kimi təbii fəlakətlər təbiətin nə qədər kövrək olduğunu və təcili tədbirlərə ehtiyac duyulduğunu ortaya qoydu.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, okeanlarda təxminən 1.6 milyard maska üzür.

Məlumdur ki, maskanın komponentlərinin yarıdan çoxu plastik və polimerlərdən ibarətdir. Bir maskanın isə yox olması ən az 450 il çəkir. Buna görə yeyilən plastiklər qida zənciri okeandakı canlılar üçün ciddi sağlamlıq riski yaradır.

**Yeganə**

# Oteldə faciə...

8 yaşlı uşaq hovuzda boğuldu



**Faciəli hadisə Antalyanın Alanya bölgəsində yaşanıb.**

"Şərq" "Milliyyət.com"a istinadən bildirir ki, Gülər ailəsi Adanadan Alanyaya istirahətə gəlib. "5 ulduzlu" otelə ödəniş edən ailənin üzvü, 8 yaşlı Əli Kamal Gülər anası və əmisi ilə otelin hovuzunda sərinlənmək istəyib. Hovuzda bir qədər qaldıqdan sonra uşağın əmisi Okan Gülər telefonuna enerji yükləmək üçün hovuzdan çıxıb, Əli Kamalı isə anası Ayşegül Gülərə tapşırıb. Əmi hovuza döndüyündə Əli Kamalı suyun üzərində cansız halda görüb. Əli Kamal hovuzdan çıxarılıb, tibbi yardım çağırılıb, lakin həkimlər nə qədər çalışsa da, uşağı həyata qaytara bilməyiblər. Əli Kamalın cənazəsi tibbi rəy üçün Antalya Ədli Tibb Qurumuna aparılıb. Polis hadisə ilə bağlı istintaqa başlayıb. Otelin 3 əməkdaşı nəzarət altına alınıb. Onların Əli Kamal hovuzda boğularkən vəzifə başında olmadıqları müəyyənləşib.

**Məlahət**





# Sağsağanın hücumu...



## *Anasının qucağında yerə yıxılan 5 aylıq körpə ölüb*




**Avstraliyada parkda körpəsiylə gəzintiyə çıxan ana sağsağanın hücumuna məruz qalıb. Hadisə Brisbend şəhərində bazar günü yaşanıb. Adının Simone olduğu açıqlanan ana, qucağındakı körpəsini qorumaq istəyərkən yerə yıxılıb.**




Mia adlı 5 aylıq körpə bu zaman ağır yaralanıb. Xəstəxanaya çatdırılan Mia bütün müdaxilələrə rəğmən həyatını itirib. Yaşananlar böyük müzakirələrə səbəb olub. Səlahiyyətlilər lazımi anda vəziyyətə müdaxilə etməməkdə ittiham olunur. Bölgədə yaşayan bir avstraliyalı, quşlardan əvvəllər də bələdiyyəyə şikayət etdiklərini söyləyir: Bu quşhər kəsə hücum edir. Brisben Lord bələdiyyəsinin başçısı Adrian Schrinner isə hadisə ilə bağlı istintaqa başlandığını açıqlayıb. "Burada prioritetimiz insanlardır. Təbii ki, bölgədəki heyvanları da qoruyuruq, ancaq insanları qorumaq daha əhəmiyyətlidir" deyən Schrinner, sözlərinə belə davam edir: "Bu, son dərəcə faciəvi bir qəzadır. Ürəyimiz, körpənin ailəsiylə döyünür". Qazanc məqsədi güdmədiklərini söyləyən quşları qoruma quruluşu olan BirdLifedən Sean Dooley isə deyib ki, yalnız dişi sağsağanlarda təcavüzkar davranışlar olur. Simone və körpənin atası Jacobun yaxınları, ailəyə kömək etmək üçün GoFundMe saytında bir hədiyyə kampaniyası başladıblar. Kampaniyada qısa müddətdə təxminən 100 min dollar toplanıb.

**Turan**

# Böcəkləri belə aşkarlayacaq

Tarlada işləyən robotlar hazırlandı





**Britaniyalı alimlər tarlada işləyən robotlar hazırlayıblar. Alimlərin iddiasına görə, robotlar 5 il sonra tarlalarda insan yerinə çalışacaqlar.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, robotlar tarladakı məhsula nəzarət edir, alaq otlarını aşkarlayır və böcəklərə qarşı dərmanlardan istifadə edir. Sistem iki robotdan ibarətdir. "Tom" adlı robot tarlaları gəzir. Xüsusi kameraları ilə sahədəki hər bir bitkini ayrı-ayrılıqda izləyir, nə qədər böyüdüyünü, su ehtiyacını və sağlamlıq vəziyyətini yoxlayır. Bütün bu məlumatlar fermerlərin kompüterlərinə real vaxt rejimində ötürülür. Digər işlərin görülməsində isə "Dik"adlı robot işə düşür. Alimlər süni intellektlə təchiz edilmiş bu robotların həm məhsulun miqdarını, həm də keyfiyyətini artıracağını söyləyirlər. Robot hətta bir böcəyi belə aşkarlayacaq və dərmanları birbaşa və lokal olaraq tətbiq edəcək.

**Yeganə Bayramova**

# "İndi də bizə doğru gəlir"

Yangın Burak Özçivit-Fahriye Evcenin evinə yaxınlaşır



**İki aydır həyat yoldaşı Fəxriyə Evcen və oğulu Canla birlikdə Bodrumda istirahət edən Burak Özçivit, ötən gün ailəsiylə İstanbula dönüb.**

Ancaq cütlüyün Gümüşlükdəki evinin ətrafındakı meşəlik sahədə yanğın çıxıb. Xəbəri təyyarədən enər - enməz öyrənən məşhur aktyor, villasının gözətçisindən məlumat alıb.

Burak Özçivit, ictimai media hesabı üzərindən yanğının evinə yaxın hissədə olduğu videonu paylaşıb, "Gümüşlük, indi də bizə doğru gəlir. Allah hamımızın köməkçisi olsun" mesajını yazıb.